www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 sentybar 2015-ci il Çərşənbə axşamı № 192 (6220) Qiymәti 40 qәpik

**Xəbər**

## Prezidentdən vətəndaşları sevindirən mühüm qərar

yazısı səh.10-da

**Gündəm**

### 2016-cı ilin dövlət büdcəsi 6 milyard azaldıla bilər



**Əli Məsimli:** "Neftin qiymətinin kəskin ucuzlaşması bir sıra dəyişikliklərin edilməsini, büdcə gəlir və xərclərinin azaldılmasını labüd edib"

yazısı səh.10-da

### Hacıbala Abutalıbov Ali Məhkəmənin qərarını icra etmir

yazısı səh.6-da

*Bəxtiyar Hacıyev:*

### "Deputat mənə şikayətləndi ki..."

yazısı səh.4-də

### Qazaxıstanda qul durumuna düşən fəhlələrin yeməyini də kəsiblər

yazısı səh.6-da

### Azərbaycanda orqan köçürməsini əngəlləyən iki əsas səbəb - bahalıq və...

yazısı səh.12-də

### MSK seçkilərlə bağlı Təqvim Planını hazırladı

yazısı səh.8-də

### Biznesmenin qətlində adı keçən qadın nələrdən danışdı...

yazısı səh.6-da

### Həsən Ruhani Azərbaycan-İran əlaqələrindən danışdı

yazısı səh.9-da

### Jurnalistin xanımının ölümündə təqsirləndirilən hakim həbs edildi

yazısı səh.2-də

### Dünyanı silkələyən jurnalist qətlinin pərdəarxası

yazısı səh.11-də

### Bərdədə məcburi köçkünlərin ev etirazı davam edir

yazısı səh.15-də

### Xədicə İsmayıl məhkəmədə son söz dedi

yazısı səh.10-da

## Hökumət neftsiz iqtisadiyyatı necə qurmaq istəyir?

# İQTİDARIN ANTİBÖHRAN MASASI - İKİ ÇIXIŞ YOLU VAR...

Qarşıdan 2016-cı ilin dövlət büdcəsinin formalaşdırılması gəlir; bu dəfə "büdcəni neftə oturtmaq" mümkün olmayacaq; hakimiyyət son aylar beynəlxalq yük daşımaçılığı ilə məşğul olan iri şirkətlərin səhmlərinə külli-miqdarda investisiya yatırır; ikinci istiqamətsə ...




yazısı səh.5-də

# Kreml Bakıya qarşı şantaj siyasətini gücləndirir - təhlükə

Sterliqov və xanımının Qarabağdakı oyunlarına, rusiyalı sənətçilərin və jurnalistlərin işğal altındakı ərazilərə adiləşən səfərlərinə rəsmi Moskvanın seyrçi reaksiyası, Qarabağ ermənilərinə Rusiyada qanunsuz sürücülük vəsiqələri verilməsi aysberqin yalnız görünən tərəfləridir...

yazısı səh.9-da



*Əli Həsənov:*

### "Günahkarlar cəzasını alacaq"

yazısı səh.3-də



### Abbas Abbasov "AzerRos"dan istefa verdi

yazısı səh.2-də



### Anar Məmmədov ABŞ-dakı lobbi təşkilatını bağladı - gerçək səbəblər...

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015



## Prezident Kəngərli rayonunun icra başçısını dəyişdirdi

**Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon İcra Hakimiyyətinin başçısını vəzifədən azad edib. Lent.az AzərTAc-a istinadən xəbər verir ki, Ramiz Əli oğlu Cəfərov ölkə başçısının sərəncamı ilə icra başçısı vəzifəsindən azad edilib. Ölkə başçısının digər sərəncamı ilə Kamal Elbrus oğlu Ələkbərov Kəngərli rayonunun icra başçısı təyin edilib.**

## AŞ PA Azərbaycanda keçiriləcək seçkilərə müşahidə missiyası göndərəcək



**Avropa Şurası Parlament Assambleyası Bürosunun bu gün keçirilən iclasında Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidə missiyası göndərmək barədə qərar qəbul edilib. Bu barədə APA-ya AŞPA-nın mətbuat katibi Francesc Ferrer məlumat verib. O bildirib ki, missiyanın tərkibinə AŞ PA-nın 13 üzvü daxildir.**

Missiyaya İspaniyadan olan parlamentar Yordi Çukla rəhbərlik edəcək.

## German Sterliqov Moskvada hava limanında saxlanıldı

**Rusiyalı iş adamı German Sterliqov Moskvanın Domodedovo hava limanında saxlanılıb. APA-nın məlumatına görə, bu barədə TASS agentliyinə onun vəkili Artur Ayrapetov bildirib. "German Sterliqov dünən saat 17:00 radələrində İrəvandan Moskvaya gəlib və dövlət sərhədini keçəndən sonra saxlanılıb", deyə Artur Ayrapetov bildirib.**

Onun sözlərinə görə, çox güman ki, G.Sterliqovun saxlanılması onun dövlətlərarası axtarışa verilməsi ilə bağlıdır.

## Jurnalistin xanımının ölümündə təqsirləndirilən həkim həbs edildi

**Bakı Apelyasiya Məhkəməsində Bakı Slavyan Universitetinin dekanı olmuş, tənqidçi Elnarə Tofiqqızının ölümü ilə bağlı açılan cinayət işi üzrə məhkəmə hökmündən verilən apelyasiya şikayətləri üzrə məhkəmə prosesi başa çatıb.**

E.Tofiqqızının həyat yoldaşı, jurnalist Anar Niftəliyevin vəkili Səməd Vəkilovun APA-ya verdiyi məlumata görə, hakim Əflatun Qasımovun sədrlik etdiyi prosesdə qərar elan edilib. Qərara əsasən, A. Niftəliyev tərəfindən verilmiş apelyasiya şikayəti qismən təmin olunaraq həkim Firuz İbrahimovun barəsində 2 il 6 ay müddətinə azadlıqdan məhrumetmə hökmü çıxarılıb. F. İbrahimov məhkəmə zalında həbs edilib.

Qeyd edək ki, 1977-ci il təvəllüdlü E. Tofiqqızı 2013-cü il sentyabrın 20-də Nəsimi rayonunda yerləşən "Medi Sina" Tibb Mərkəzində süd vəzi kanalının əməliyyatı zamanı vəfat edib. Məhkəmə-Tibbi Ekspertizasının rəyinə əsasən müəyyən edilib ki, E. Tofiqqızı üzərində anestezioloq düzgün anesteziya əməliyyatı aparmayıb. Nəticədə xəstənin ağciyərinin funksiyası pozulub və o, tənəffüs çatışmazlığından vəfat edib.

Dünən maraqlı bir olay da baş vermişdi. Bir neçə dəfə xəstə olması bəhanəsi ilə məhkəməyə gəlməyən həkimin A.Niftəliyev evindən çıxıb maşınla harasa gedərkən qarşısını kəsmişdi. Bu zaman o, maşınla A.Niftəliyevi vuraraq hadisə yerindən uzaqlaşmışdı.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# İbrahim Məmmədovun otağını əlindən alıblar?

### AzTV-nin sədr müavini bu gün işə çıxacaq, sədrlə müavin arasındakı problemin necə həll olunacağı bilinmir

**Son günlər AzTV-də baş verən qalmaqallar, işdən çıxarılmalarla bağlı mətbuatda informasiyalar yer almaqdadır.**



İbrahim Məmmədov

Bir müddət əvvəl də sədr Arif Alışanovla müavini İbrahim Məmmədov arasındakı narazılıqlar, hətta sədrin İ.Məmmədovun aparıcısı olduğu verilişin bütün işçilərini AzTV-dən çıxarması ilə bağlı məlumatlar yayılmışdı. Bildirilirdi ki, Arif Alışanovun İ.Məmmədovu da işdən azad edə bilməməsinə səbəb aparıcının prezidentin sərəncamı ilə sədrə müavin təyin edilməsidir. Yəni prezidentin sərəncamı ilə təyin olunan İ.Məmmədovu A.Alışanovun işdən çıxarmağa səlahiyyəti çatmır.

Amma İ.Məmmədov bugünlərdə "Azərbaycan" qəzetində dərc edilən iri bir məqaləsi ilə həqiqətən də problemlərin olmasına işarə verdi. Əldə etdiyimiz məlumatlara görə, jurnalistin sözügedən məqaləsi "Həftə" verilişi üçün hazırlansa da, müəllif efirlə bağlı problem yaşadığı üçün onu sözügedən nəşrdə yayımlayıb. İ.Məmmədov israrla mediaya açıqlamasında məzuniyyətdə olduğu üçün efirdə görünmədiyini deyir. Amma məzuniyyətdə olduğu halda iri bir qəzet səhifəsi həcmində müəllif yazısının hökumət qəzetində dərc də birmənalı qarşılanmır.

Əldə etdiyimiz məlumata görə, İ.Məmmədovun məzuniyyəti avqustun 31-də bitir. Sentyabrın 1-dən, yəni bu gündən etibarən onun işə çıxacağı gözlənilir. Bununla belə, sədrlə onun müavini arasındakı çəkişmə öz həllini tapmayıb. Bunun sübutu kimi telekanalda İ.Məmmədova "Həftə" verilişinin aparıcısı və müəllifi kimi məxsus olan otağın ondan alınmasıdır.

Sədr müavininin qayıdandan sonra öz fəaliyyətinə harada, hansı otaqda, hansı verilişdə davam edəcəyi bəlli deyil. Ehtimal edilir ki, hakimiyyət daxilində Arif Alışanovun tərəfdarları çox olduğu üçün sədr-müavin çəkişməsi birincinin xeyrinə həll olunacaq. Bu halda İ.Məmmədovu hansısa hakimiyyət mediasının - bu, sayt da ola bilər, regional televiziya da, qəzet də - rəhbərliyinə gətirmə planı qüvvəyə minəcək. Hakimiyyət onun üçün dəyərli olan hər iki kadrı itirməmək və bu problemi sülhlə yoluna qoymaq üçün kompromis variantını seçəcək.

❑ Sevinc TELMANQIZI



## Abbas Abbasov ""AzerRos"dan istefa verdi

**Abbas Abbasov Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti - "AzerRos"dan istefa verib.**

Bu barədə APA-nın Moskva müxbirinə "AzerRos"dan məlumat verilib. Məlumata görə, bu gün "AzerRos" Ağsaqqallar Şurasının növbəti iclası keçirilib. İclasda A. Abbasov təşkilatdan və Ağsaqqallar Şurasının üzvlüyündən istefa verdiyini açıqlayıb. Onun istefası qəbul edilib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

## Nazirlik xanım qazi ilə bağlı yazıya reaksiya verdi

### Elman Babayev: "Nazirlik tərəfindən Rüxsarə Cumayevayanın özü ilə əlaqə saxlanılıb və... "



Elman Babayev

**"II qrup ümumi səbəbdən əlil Rüxsarə Cumayevaya səhhətindəki ağırlaşma barədə aidiyyəti səhiyyə müəssisəsi tərəfindən göndəriş forması verilərsə, ƏƏSMN-in müvafiq ərazi üzrə TSEK-ində onun müayinəsi aparılaraq, nəticəsinə əsasən qərar qəbul olunacaqdır".**

Bunu "Yeni Müsavat"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev deyib. Qeyd edək ki, "Yeni Müsavat" qəzetinin 28 avqust 2015-ci il tarixli sayında II qrup ümumi səbəbdən əlil Ruxsarə Cumayevanın əlillik vəziyyətinin ağırlaşması səbəbindən əlillik qrupunun dəyişdirilərək I qrup əlillik dərəcəsi almaq üçün ona müvafiq göndəriş formasının (forma 88) verilməməsi barədə yazı dərc olunub.

E.Babayev bildirib ki, vətəndaşların əlillik müayinəsinin aparılması üçün göndəriş forması (forma 88) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin aidiyyəti səhiyyə müəssisələri tərəfindən verilir. Ona görə də R. Cumayevaya həmin göndəriş formasının verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) səlahiyyətlərinə daxil deyil. R.Cumayevaya məqalədə qeyd olunan 5 saylı şəhər poliklinikası tərəfindən göndəriş forması (forma 88) verildiyi halda ƏƏSMN-in müvafiq ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyası (TSEK) tərəfindən dərhal onun əlilliyi müayinə olunaraq, nəticəsinə uyğun qərar verilməklə, əlillik qrupu təyin olunacaqdır.

"ƏƏSMN-nin Əlillərin sosial müdafiəsi siyasəti şöbəsinin müdiri Saday Abdullayev tərəfindən də R. Cumayevaya ona göndəriş forması (forma 88) veriləcəyi təqdirdə TSEK-də onun əlilliyinin müayinəsinin aparılacağı və uyğun olduğu halda ona I qrup əlillik təyin olunacağı bildirilib. Bir daha vurğulayırıq ki, II qrup ümumi səbəbdən əlil R.Cumayevaya səhhətindəki ağırlaşma barədə aidiyyəti səhiyyə müəssisəsi tərəfindən göndəriş forması verilərsə, ƏƏSMN-in müvafiq ərazi üzrə TSEK-ində onun müayinəsi aparılaraq, nəticəsinə əsasən qərar qəbul olunacaq"-deyə şöbə müdiri qeyd edib.

E.Babayev əlavə edib ki, nazirlik tərəfindən R.Cumayevayanın özü ilə əlaqə saxlanılıb və o, ƏƏSMN ilə hər hansı probleminin olmadığını, yalnız 5 saylı şəhər poliklinikası tərəfindən göndəriş forması (forma 88) almaqda çətinliklə üzləşdiyini bildirib.

❑ T.ƏHMƏDLİ



## Cavid Hüseynovun apelyasiya şikayəti təmin olunmadı

**Jurnalist Rasim Əliyevin ölüm işində təqsirləndirilərək həbsə alınan futbolçu Cavid Hüseynovun apelyasiya şikayəti təmin olunmayıb. Musavat.com-un məlumatına görə, bu barədə jurnalistlərə futbolçunun vəkili Adəm Məmmədov məlumat verib.**

İdmançının vəkili Adəm Məmmədov bildirib ki, C.Hüseynov özünü günahkar saymır və bu iş üzrə dindirilən şəxslər də onun bu işdən xəbəri olmadığına dair ifadə veriblər.

Xatırladaq ki, C.Hüseynova qarşı cinayəti bilib xəbər verməmə maddəsi ilə ittiham irəli sürülüb. O, avqustun 11-də jurnalist Rasim Əliyevin ölüm işi üzrə həbs olunub.

Daha beş nəfər, o cümlədən idmançının qohumu Elşən İsmayılov həbs olunub. O, avqustun 8-də jurnalisti vəhşicəsinə döyüb. E.İsmayılova qarşı CM-in 126.3 (qəsdən insan ölümünə səbəb olan ağır xəsarətlərin yetirilməsi) maddəsi ilə ittiham olunur. R.Əliyev avqustun 9-da xəstəxanada ölüb.

## Azərbaycan və Rusiya arasında gömrük nəzarəti ilə bağlı protokol təsdiq edildi

**Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin qarşılıqlı tanınması haqqında 2015-ci il iyulun 3-də Moskva şəhərində imzalanmış Protokolun təsdiq edilməsi barədə sərəncam imzalayıb.**

Dövlət Gömrük Komitəsinə protokolun müddəalarının həyata keçirilməsini təmin etmək, Xarici İşlər Nazirliyinə isə protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyasının Hökumətinə bildiriş göndərmək tapşırılıb.

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015

# "Günahkarlar cəzasını alacaq"

## **Əli Həsənov:** "Tərəfdaşlarımızdan tələb edirik ki, özünüzə rəva görmədiyinizi bizə də görməyin. Bizə rəva gördüklərinizi özünüzə də rəva görün"

**Ötən bazar Mir Şahinin qonağı prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov olub. Musavat.com ANS TV-yə istinadən həmin müsahibəni təqdim edir:**

***- Əli müəllim, seçki ərəfəsi ictimai-siyasi vəziyyəti necə qiymətləndirirsiniz?***

- Hesab edirəm ki, bütün dövrlərdə olduğu kimi Azərbaycanda budəfəki seçkiqabağı vəziyyət sabitdir, cəmiyyətin vətəndaş təşəbbüsləri kifayət qədər aktivdir. İctimai-siyasi institutlar arasında dialoq və anlaşma mühiti mövcuddur. Bu mühitlə də Allah qoysa, builki seçkiləri başa vuracayıq. İnşallah!

***- Azərbaycanda vəziyyət hətta təəccüb doğuracaq dərəcədə sakitdir. Adama elə gəlir ki, seçki 6-7 aydan sonra olacaq?***

- Əlbəttə ki, bu sakitliyin də əsasları var. Əsas odur ki, cəmiyyətdə bir barış mühiti mövcuddur. Həm siyasi partiyalarla, həm qeyri-hökumət təşkilatları ilə, həm mətbuatla, həm də bütövlükdə daxili və xarici qurumlarla Azərbaycan hökumətinin yürütdüyü siyasət kifayət qədər konstruktivdir. Və bu konstruktivlik platformasında da münasibətlər sabit və barış əhval-ruhiyyəlidir.

***- İndi bu beynəlxalq dostlarımız, müşahidəçilər nə deyirlər? Gələcəklər seçkiyə baxmağa, yoxsa...?***

- Bizim seçkinin əsas qiymət meyarı Azərbaycan seçicisidir, Azərbaycan xalqıdır. Biz seçkini də ona görə keçiririk ki, bu xalqın istək və arzusu ilə həyata keçirilir. Xalq öz vəkilini, prezidentini, eləcə də özünü idarəetmə qurumu olan bələdiyyə sədrini seçir. Və hər dəfə seçki keçirəndə biz ilk növbədə Azərbaycan xalqının rəyinə, iradəsinə və onun bu sahədə nümayiş etdirdiyi mövqeyə söykənirik. Amma Azərbaycan beynəlxalq aləmin bir ayrılmaz tərkib hissəsidir. Biz beynəlxalq aləmdə - BMT-dən başlayaraq, Türk Dövlətləri Birliyinə qədər müxtəlif regional və beynəlxalq qurumlarda təmsil olunuruq, tərəfdaşlarımız var.

Bizimlə beynəlxalq aləmdə dünya siyasətini formalaşdıran strukturlar var. Ona görə də biz yürütdüyümüz siyasəti, keçirdiyimiz seçkiləri, xüsusən də ümummilli mahiyyət kəsb edən məsələləri istəyirik ki, beynəlxalq aləm də görsün, müşahidə eləsin və öz qiymətini versin. Biz hansı səviyyəyə gəlib çatmışıq, nəyimiz yaxşıdır, nəyimiz çatmır, nələrin hələ də üzərində işləməliyik. Odur ki, biz dəvət etmişik və edəcəyik. Azərbaycanın qanunvericiliyinə müvafiq olaraq MSK, Milli Məclis və digər qurumlar öz tərəfdaşlarını bu seçkiyə dəvət edəcəklər. Hesab edirəm ki, onlar da bu dəvəti qəbul edəcəklər və Azərbaycanda keçirilən seçkilərə öz qiymətini verəcəklər. Bir daha qeyd edirəm ki, bizə ilk növbədə Azərbaycan xalqının rəyi maraqlıdır, amma eyni zamanda beynəlxalq rəydən də imtina etmək fikrində deyiləm.

***- Mətbuata sızan bəzi məlumatlara görə, guya ki, ölkənin əsas siyasi, əslində hərəkətverici qüvvəsi olan Yeni Azərbaycan Partiyasının seçkilərə getmək üçün lazım olan siyahısı hazır deyil.***

- Düşünmürəm ki, bunun əsası var. Yeni Azərbaycan Partiyası (YAP) əvvəla, öz sıralarında kifayət qədər sabit münasibətlər formalaşdıra bilib. Bu münasibətlərdən çıxış edərək, onun həyata keçirdiyi hər bir aksiya, bir qayda olaraq, ciddi tələtümlər törətmir, əksinə, sosial anlayışla qarşılanır, cəmiyyət tərəfindən müvafiq olaraq dəyərləndirilir. Yeni Azərbaycan Partiyasının budəfəki seçki siyahısı da müvafiq olaraq partiya strukturları tərəfindən artıq hazırlanıb. Partiyada idarəçilik demokratik normalara söykənir. Aşağı təşkilatlardan namizədlərin irəli sürülməsi ali quruma qədər, partiyanın idarə heyətinə qədər mərhələlər üzrə müzakirə olunur. Bundan sonra partiyanın idarə heyəti bu qərarı verir. Qərar veriləndən sonra elan olunur. Və elan olunandan sonra artıq bütün cəmiyyət üçün bu namizədlərin üzərində işləmə prosesi başlayır. Həmin siyahı partiyanın idarə heyətində səsə qoyularaq cəmiyyətə təqdim olunacaq. Hesab etmirəm ki, bunun əsasında narahatlıq və yaxud da hansısa, panika yarada biləcək bir məqam var.

***- Seçki ilində adətən müxtəlif təbəddülatlar baş verir, kataklizmlər olur, daxildə nələrisə tərpətmələrə cəhdlər, meyllər olur. Etiraf edək ki, Mingəçevirdə kütləvi etiraz aksiyası baş verdi və cənab prezident də bu hadisəni törədən səbəbləri öz nəzarəti altına götürdü. Əslində orda nə baş vermişdi və indi bu saat orda gedən prosesləri siz necə qiymətləndirirsiz?***

- Əlbəttə, könül açan hadisə deyildi. Bir vətəndaşın onun hüquqlarını müdafiə edən cəmiyyətdə asayişi bərqərar eləyən və asayişin keşiyində duran qurumun ofisində həlak olması, dünyasını dəyişməsi hansı səbəbdən olursa-olsun, yaxşı hal deyil. İstər bunun səbəbi polis olsun, istər bunun səbəbi həmin vətəndaşın özü olsun, istər ehtiyatsızlıqdan olsun, istər məsuliyyətsizlikdən olsun, istərsə də ortada cinayət faktı olsun və yaxud olmasın. Əlbəttə, mövcud qanunvericiliyə müvafiq şəkildə araşdırma gedir və bu iş cənab prezidentin nəzarəti altındadır. Buna müvafiq qiymət veriləcək. Günahkarlar cəzasını alacaq. Əlbəttə, dünyasını dəyişmiş insanın həyatını geri qaytarmaq hələ heç kimə nəsib olmayıb. Ona görə də düşünürəm ki, bu hadisə yaxşı hal deyildi. Bu olmamalı idi. Amma baş verib. Heç bir cəmiyyət, heç bir dövlət, heç bir insan bu tipli hallardan sığortalanmayıb. Odur ki, belə halların təkrar baş verməməsini müəyyən eləmək bu dövlətin bir nömrəli vəzifəsidir. Dövlət çalışmalıdır ki, belə hallar olmasın. Olanda da dərhal araşdırılsın və bunun səbəbləri dərhal aradan qaldırılsın. Ona görə də mən bunun hüquqi təfsilatına varmaq istəmirəm. Amma təəssüflər olsun ki, bu, hadisə baş verdi. Bu hadisədən narahatlıq da oldu. O cümlədən Mingəçevir şəhər ictimaiyyətinin, mərhumun qohumlarının narazılığı da oldu. Bu narazılıq, əlbəttə, bəri başdan demək olmaz ki, əsassız idi. Amma sadəcə olaraq hər bir insan narazılığı, narahatlığı şəhərdə ümumi asayişin pozulmasına səbəb olmamalıdır. Digər insanların təhlükəsizliyinə təhdid yaratmamalıdır. Bir hadisənin qarşısını almaq üçün başqa hadisələrə zəmin yaratmamalıdır. Bu anlamda, əlbəttə, dəyərləndirilir, qiymətləndirilir. Cənab prezidentin nəzarəti altında Daxili İşlər Nazirliyi və prokurorluq orqanları bu araşdırmanı aparır, günahkarlar layiqli cəzalarını alacaqlar, mərhumun qohumları da bunu bilsin. Azərbaycan və Mingəçevir şəhərinin ictimaiyyəti də bilsin ki, Azərbaycanda heç bir cinayət və ya məsuliyyətsizlik, yaxud da ki, digər hadisələr izsiz və cəzasız qalmayıb. Eyni zamanda bu da qalmayacaq.

***- İndi ənənəvi suala qayıdaq: Azərbaycanla Qərb münasibətlərinə. Azərbaycanla Qərb arasında çox qəribə münasibətlər var. Elə bil ki, qısaqapanmalar olur. Gah yanır-sönür, gah da qaranlıq-aydınlıq olur. İndi qaranlıqdır yoxsa aydınlıqdır? Bəzən onların nümayəndələri bura gəlib-gedəndən sonra adamda elə təəssürat yaranır ki, deyəsən hər şey düzəldi. Amma bir müddət keçəndən sonra bizim ali orqanlarımızın birində kəskin məqalə gedir və məlum olur ki, bu məqalə artıq hansısa bizim haqqımızda yazılan kəskin məqaləyə cavabdır.***



**"Bizə ilk növbədə Azərbaycan xalqının rəyi maraqlıdır, amma eyni zamanda beynəlxalq rəydən də imtina etmək fikrində deyilik"**

- Bir jurnalist kimi siz dəfələrlə bu mövzuya toxunmusunuz. Özünə rəva görmədiyini başqasına görməməlisən. Məsələn, Azərbaycanda bu yaxınlarda bir jurnalist döyülərək qətlə yetirildi. Qətlin iştirakçıları isə həbs olundular. Cənab prezident bu işə xüsusi olaraq müdaxilə elədi. Bir nəfər jurnalisti döydüklərinə görə hazırda altı nəfər həbs edilib. Hələ məhkəmə prosesi zamanı nələr ortaya çıxacaq?.. Hər şey aydındır. Amma açıq ekranda ictimaiyyətin gözü önündə dünyanın ən güclü, ən təhlükəsiz, fövqəl dövləti, dünya nizamını müəyyən edən bir ölkədə canlı efir gedə-gedə bir nəfər içəri daxil olur və iki nəfər jurnalisti qətlə yetirir. Biz dəfələrlə bəyan etmişik ki, Azərbaycan da daxil, dünyanın heç bir ölkəsi cinayətdən sığortalanmayıb. Cinayətkarı dünyanın heç bir ölkəsi indiyə qədər tam şəkildə cəmiyyətdən təcrid eləməyib, cinayətkarlığın qarşısını yüzdə-yüz ala bilməyib. Bu, hər yerdə baş verən prosesdir. Əsas məsələ ondan ibarətdir ki, dövlət bu işə lazımi adekvat qiymət verməlidir, adekvat yanaşma nümayiş olunmalıdır, cinayətkarın axtarışı istiqamətində düzgün tədbirlər müəyyən olunmalıdır və cinayətkar tapılıb cəzalandırılmalıdır ki, növbəti belə cinayət törətməyə insanlar cəsarət etməsin. Amma təəssüflər olsun ki, bizdəki çox görünür, bütün beynəlxalq aləm dərhal bunu görür, reaksiya və bəyanatlar verirlər, Azərbaycan dövlətini, prezidentini günahlandırırlar və ilaxır. Özlərində isə eyni proseslərə göz yumurlar. Hətta günlərin birində Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin sözçüsü dedi ki, bu proseslərin dünyada heç kimə dəxli yoxdur, bunlar Amerikanın daxili işidir. Yəni polis tərəfindən jurnalistin, vətəndaşın qətlə yetirilməsi - bu, Amerikanın daxili işidir və müzakirə üçün açıq deyil. Necə olur ki, bir dövlətdə açıq olmur, amma digər dövlətdə açıq olur. Bir dövlətdə jurnalistin hansısa başına gələn oyun dərhal beynəlxalq aləmə çıxarılır, digər dövlətdə olmur. Ona görə də biz hər zaman tərəfdaşlarımızdan tələb edirik ki, özünüzə rəva görmədiyinizi bizə də görməyin. Bizə rəva gördüklərinizi özünüzə də rəva görün. Sadəcə olaraq, biz dünya dövlətlərini onun böyüklüyu-kiçikliyi ilə deyil, gücünün azlığı-çoxluğu ilə deyil, ərazisinin genişliyi-kiçikliyi ilə deyil, hər biri beynəlxalq hüququn subyekti kimi bərabər hüquqla dəyərləndiririk və istəyirik ki, hər kəsin hüququ BMT yanında bərabər olsun. Hamıya da eyni standartla yanaşsınlar. İkili standart müasir dünya siyasətini çox təəssüf ki, təhdid edir, etməkdə davam edir. Əgər bunun qarşısı alınmasa, bundan sonra dünyada nələr baş verəcək? İnsanlıq çox dəhşətli faciələrlə üz-üzə gələ bilər.

***- Ermənistan və Azərbaycan prezidentlərinin görüşü nə vaxta planlaşdırılıb? Qarabağ mövzusunda danışıqların bərpa olunması, Azərbaycan prezidentinin Ermənistan prezidenti ilə hətta deyilənə görə, BMT-nin 70 illiyi münasibətilə Nyu-Yorkda görüşü nəzərdə tutulur. Ümumiyyətlə, belə bir söhbətlər nə dərəcədə əsaslıdır?***

- Danışıqlar əsasən Minsk Qrupu formatı çərçivəsində davam edir. Formata uyğun olaraq hər iki ölkənin dövlət başçılarının və xarici işlər nazirliklərinin görüşü keçirilir. Eləcə də digər nümayəndələrin apardıqları danışıqlar da. Bu formata, biz daxil, hələ də ümid bəslənilir. Amma təəssüflər olsun ki, Minsk Qrupunun, necə deyərlər, dişsiz fəaliyyəti, BMT Təhlükəsizlik Şurasının bu məsələyə ikili yanaşması, BMT-nin qətnamələrinə laqeydliyi Azərbaycanı və Ermənistanı müharibəyə sürükləyir. İndiki halda bu danışıqlar belə davam eləsə, danışıqlar imitasiyası adı altında Ermənistanın bu qeyri-konstruktiv mövqeyi davam eləsə, BMT Təhlükəsizlik Şurası üzvləri və bütövlükdə BMT Ermənistana təzyiq göstərməsə, müharibə qaçılmazdır. Azərbaycanı, Ermənistanı, Cənubi Qafqazı yenidən müharibə dalğası bürüyə bilər. Çünki Azərbaycan heç bir zaman torpaqlarının itirilməsi ilə barışmayacaq. Cənab prezident dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bu, bizim beynəlxalq hüquq normalarına söykənən milli haqqımızdır. Və biz də bu milli haqqımızı bir kimsəyə güzəştə getməmişik və getmək fikrində də deyilik.

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015



# Anar Məmmədov ABŞ-dakı lobbi təşkilatını bağladı - gerçək səbəblər...

"Yeni Müsavat"ın bir neçə gün əvvəl yazdığı xəbər təsdiqləndi; Amerika-Azərbaycan Alyansının bağlanmasını Məmmədovların maliyyə problemləri ilə izah etmələrinin şok səbəbi...

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu, Amerika-Azərbaycan Alyansının rəhbəri Anar Məmmədovun lobbiçilik fəaliyyətindən uzaqlaşdırılacağı barədə "Yeni Müsavat"ın bir neçə gün əvvəl yazdığı xəbər təsdiqlənib.( http://musavat.com/news/olke/ziya-memmedovun-ogluna-agir-zer-be-amerika-yolu-baglanir_285837.html). Xatırladaq ki, həmin yazıda bildirilirdi ki, 2011-ci ildə Amerikada Azərbaycanın lobbi işinin aparılması məqsədilə A.Məmmədovun rəhbərliyi ilə yaradılan qurumun son aylardakı fəaliyyətsizliyindən iqtidar narazı olub. Bu səbəbdən də nəqliyyat naziri Prezident Administrasiyasında sorğu-suala çəkilib, hətta təşkilata ayrılan pulların hesabı sorulub. "Bəzi məlumatlara görə, təşkilata ayda təxminən 3 milyon dotasiya ayrılır" deyə, xəbərdə bildirilirdi.**

Virtualaz.org saytının mötəbər mənbələrə istinadən yaydığı məlumatda isə qeyd olunur ki, A.Məmmədov biznesində yaranmış maliyyə problemləri səbəbindən ABŞ-dakı lobbiçilik fəaliyyətini dayandırıb. Belə ki, bir neçə həftə əvvəl Anar Məmmədov Vaşinqtondakı ofisini bağlayıb, təşkilatın kollektivi rəsmən buraxılıb. Saytın məlumatına görə, Anar Məmmədovun böyük borcları yaranıb. Onun biznes işlərinin acınacaqlı vəziyyətə düşməsinin digər oliqarx Hafiz Məmmədovla maliyyə zəminində ayrılmaları ilə əlaqəli olduğu bildirilir. "Məmmədovların maliyyə imperiyasının çökməsinin səbəbləri haqda kifayət qədər geniş və uzun-uzadı bəhs etmək olar. Bu zaman oliqarxın 50 milyon dollarlıq şəxsi təyyarə almasından tutmuş Bodrumda hotel tikintisinə qədər ölçüyəgəlməz şəxsi xərclərini xatırlatmaq olardı. Ancaq qeyri-peşəkar menecment faktı da ortadadır. Vaşinqtonda Azərbaycanın maraqlarını qorumaq üçün yaradılmış Amerika-Azərbaycan Alyansı bağlanıb. Senatorları yedirtməyə artıq heç nə qalmayıb..."-deyə xəbərdə vurğulanır.

Alyansın bağlanmasını Məmmədovların maliyyə problemləri ilə izah etmələri əslində anlaşılandır. Çünki təşkilatın iqtidarın etimadını itirməsi səbəbindən bağlanmasını elan etmək Məmmədovlara daha ciddi zərbə olardı. Bu səbəbdən də "təşkilatdakı maliyyə problemi" dünyanı bürüyən qlobal iqtisadi böhran fonunda inandırıcı görünür. Alyansın maliyyə problemi səbəbindən buraxılması həm də ona mesaj ola bilər ki, qurumun maliyyələşməsində dövlət iştirak etməyib və "maliyyə xəyanəti" söz-söhbətləri əsassızdır. Qeyd edək ki, alyansın yarandığı dövrdə maliyyə məsələlərinin hakimiyyətdə geniş maddi sərvətlərə sahiblənmiş Məmmədovların üzərində olduğu yeni xəbər deyil. Amma bu, heç də o demək deyil ki, bu pullar Məmmədovların öz şəxsi büdcəsindən xərclənib və iqtidar bunun hesabını aparmayıb. Alyansın məhz pul krizisi səbəbindən bağlanması real deyil və Məmmədovlar okeanın o tayında buna heç vaxt özbaşına qərar verə bilməzdilər.

O da mümkündür ki, Məmmədovlar bu izahatla həm də deyildikləri qədər varlı olmadıqları rəyi yaratmağa çalışıblar. Çünki bugünlərdə Amerikanın "Mother Jones" online jurnalı "Donald Tramp mübahisəli azərbaycanlı oliqarxla ortaq biznes qurub" başlıqlı araşdırma yazısında nazir oğlunun sərvəti barədə də yazmışdı. Məqalədə bildirilirdi ki, Anar Məmmədovun rəhbərlik etdiyi "Garant Holdinq"in dəyəri 1 milyard dollardan çoxdur və o, "Tramp Hotel" brendi üçün ABŞ-da respublikaçıların prezidentliyə namizədi Donald Trampa 2.5 milyon dollar ödəyib.

❑ "Yeni Müsavat"

# "Deputat mənə şikayətləndi ki..."

**Bəxtiyar Hacıyev:** "Real gözləntim odur ki, Milli Məclisin tərkibi, seçki mühiti ciddi dəyişməyəcək, əvvəlki seçkilərdən daha sönük, sakit seçki keçəcək..."

**Harvard Universitetində ictimai siyasət üzrə magistratura pilləsində təhsil almış, "Müsbət Dəyişiklik" Gənclər Hərəkatının sədri Bəxtiyar Hacıyev "Yeni Müsavat" qəzetinə müsahibəsində hazırkı fəaliyyəti və parlament seçkiləri ilə bağlı danışıb.**

***- Hazırda hansı fəaliyyətlə məşğulsunuz? Ofisinizdə axtarışlar aparılmışdı. Bu proseslərin davamı necə oldu?***

- "Müsbət Dəyişiklik" Gənclər Hərəkatının ofisini 2014-cü ilin noyabr ayından bağlamışıq, amma arada kiçik layihələr edirik. Bağlamağımızın səbəbi gənclər sektoru, vətəndaş cəmiyyətinə artan basqılar dalğasından az da olsa üzvlərimizin qorunması idi. Mən özüm isə "Human Capital Consulting" çərçivəsində gənclərlə bağlı bir neçə layihənin üzərində çalışıram. Bunlardan birincisi, tələbə və gənclərin Avropa Parlamentinə iş təcrübəsi proqramına göndərilməsidir. May-iyul aylarında 6 gəncimiz bir neçə ay Avropa Parlamentinin deputatlarının ofislərində işlədilər, həm təcrübə qazandılar, həm də Avropanın siyasi paytaxtında, belə bir əhəmiyyətli qurumda Azərbaycanın tanıdılmasına kömək etdilər. Bu, həm gənclər üçün, həm də ölkəmiz üçün çox vacib bir işdir və məhz buna görə də bu aydan etibarən daha çox gənci, ən azı 10 nəfəri yenidən Avropa Parlamentinə göndərməyi düşünürük. Hazırda bu gənclərin seçimi üzərində çox gərgin iş gedir.

***- 2010-cu ildə parlament seçkilərində iştirak etmişdiniz. Bu il necə, namizədliyinizi irəli sürməyi düşünürsüzmü?***

- 2010-cu ildə gənc namizəd olmağıma, heç bir resurslarımızın olmamasına, indikindən dəfələrlə daha az tanınmağıma, seçki və bir çox məsələlərdə təcrübəsizliyimə baxmayaraq, cəmi 23 gün müddətində kifayət qədər uğurlu seçki kampaniyası təşkil etdik. Seçki müddətində könüllü olmuş gənclərin bir çoxu sonradan "Müsbət Dəyişiklik" Gənclər Hərəkatını təsis etdilər, çoxlu dostlar və təcrübə qazandıq. Amma seçkinin nəticəsinin necə həll olunduğu hamıya bəllidir.

İndi isə qeyd etdiyim kimi, Avropa Parlamentində gənclərin təcrübə qazanması, İctimai-Siyasət İnstitutu (PPI) gənclərin analitik mərkəzinin qurulması, xaricdə təhsil alan tələbələrlə bağlı bir neçə çox vacib layihələrin üzərində işləyirik. Belə gərgin vaxtda seçkilərə bir halda qatılmaq olar - əgər seçkilərin nəticəsində qələbə olacaqsa və bu qələbənin rəsmiləşdirilməsi üçün problem olmayacaqsa. Hazırda prosesi müşahidə edirəm, siyahılar açıqlansın, əgər qeyd etdiyim kimi, seçkidə iştirakımın bir mənası olacaqsa, iştirak edə bilərəm.

***- Ölkədəki seçki mühitini necə dəyərləndirirsiniz?***

- Seçkilərə çox az vaxt qalsa da, ölkədə seçki mühiti hiss olunmur. Bəzi bloklarda elə adlar toplaşıb ki, onlar haqqında fikir bildirməyi də özümə rəva bilmirəm. Düşünürəm ki, bu seçkidə bloklardan, partiyalardan daha çox, öz sahələrində tanınmış iqtisadçılar, vəkillər, ziyalılar daha çox önə çıxa bilər. İnsanlar blokların adlarından, partiyalardan daha çox fərdlərə səs verirlər. Düşünürəm ki, bu dəfə Milli Məclisdə 5 il oturub heç bir iş görməyən, seçicilərlə ünsiyyətdə olmayan, heç bir qanunvericilik təşəbbüsü göstərməyən, biznesmen, idmançı, müğənnilərdən daha çox, həm Milli Məclisin özünə, həm də Azərbaycana fayda verə biləcək şəxslər olmalıdır.

Sizə iki misal deyim. Birincisi 2010-cu ildə baş verib. Seçkilərə az qalmış, o zaman Milli Məclisin üzvü olan bir şəxs mənə şikayətləndi ki, Avropa və Amerika Azərbaycanın maraqlarına qarşı çıxır, Qarabağ məsələsində onun deputat kimi qaldırdığı məsələləri heç kim dinləmək istəmir. Mən soruşdum ki, siz harada, nə demisiniz ki, dinləməyiblər? O, müxtəlif ölkələrlə parlamentlərarası dostluq qruplarında etdiyi çıxışın mətni olan bir kağız çıxardı və hecalayaraq oxumağa başladı: "Zzzeeee, Repaaaablik of Azərbaycaaaaan..." Elə bunu eşidən kimi sözünü kəsdim, dedim, inciməyin, amma Qarabağ münaqişəsi ilə bağlı mövqeyinizi mənə də bu şəkildə, kağızdan, hecalayaraq oxusanız, mən də sizi dinləmərəm.

İkincisi bu il Brüsseldə Avropa Parlamentinin deputatları ilə keçirdiyim görüşlərdə oldu. Onlardan bir çoxu məhz Azərbaycanın maraqlarına uyğun təşəbbüslər irəli sürdüklərini, ölkəmizi daha yaxından tanımaq, dost olmaq istədiklərini bildirsələr də, bir çox hallarda bəzi Milli Məclisdəki deputat həmkarlarının onların təşəbbüslərinə soyuq, biganə baxdıqlarını dedilər. Bir çox hallarda indiki deputatlarımızın bəziləri beynəlxalq mühitdə görüşləri, iclasları sadəcə "iştirak etdik" deyə bilmək üçün keçirirlər, sonra isə həmin ölkələrdə alış-verişə gedirlər. Bu isə təbiidir, heç bir siyasi keçmişi, danışıqlar aparmaq, iş görmək təcrübəsi olmayan biznesmenləri Milli Məclisə buraxanda, onlar da öz fəaliyyətsizliklərini Avropanın, Amerikanın üstünə atacaqlar. Təbii ki, Milli Məclisdə istisnalar təşkil edən adamlar da var, amma düşünürəm ki, ora layiq olmayan deputatlar özləri seçkidə iştirakdan imtina etməlidirlər və ölkə üçün daha faydalı işlər görə biləcək insanlar üçün yol açmalıdırlar. Belə insanlar isə cəmiyyətdə kifayət qədər çoxdur.

***- Tutaq ki, seçkidə iştirak edib qalib gəldiniz. Nə edəcəksiz?***

- Bu il Qərb səfirliklərindən birinin diplomatik ziyafəti zamanı müxtəlif insanlarla görüşüb söhbət edirdim. Masalardan birinin ətrafında siyasilərimizlə danışanda bir nəfər "seçkiyə gedəcəksinizmi bu il, seçilsəniz nə edəcəksiniz ki, elə bir parlamentdə" soruşdu. Baxdım ki, masa ətrafında olan şəxslərin hamısı müxtəlif vaxtlarda, xüsusilə mətbuatın daha azad, vətəndaş cəmiyyətinin daha fəal olduğu vaxtlarda həmin Milli Məclisdə oturublar. Zarafatla dedim ki, siz Milli Məclisdə oturanda nə etmişdinizsə, mən də ondan edəcəm. Bu gün müxalifətin ən tanınmış simaları zamanında Milli Məclisdə təmsil olunublar, özü də elə zamanda olublar ki, o zaman Milli Məclisdən kənarda da dəfələrlə daha böyük işlər görmək olardı. Amma nədənsə, hansısa seçkidə mandat almayanda, artıq Milli Məclisdə oturmağı aşağılamağa çalışırlar. Konkret özümə gəldikdə, onu deyə bilərəm ki, insan öz ölkəsini, öz vətəndaşlarını sevirsə və onlar üçün çalışmaq istəyirsə, bunu Milli Məclisdə də edə bilər, ondan kənar da. Bunun üçün mandat vacib deyil. Ancaq elə məsələlər var ki, Milli Məclisin üzvü statusu görüləcək işlərin səmərəsini də, miqyasını da dəfələrlə artıra bilir. Məsələn, son illər sosial şəbəkələrdən yüzlərlə insan mənə müxtəlif problemlərlə bağlı müraciətlər ediblər. Mən onların həlli üçün özümün imkanım olmadığına görə müxtəlif deputat dostlara yönləndirmişəm, böyük əksəriyyəti dərhal həll olunub. Çünki mən Bəxtiyar Hacıyev olaraq hansısa quruma zəng edib vətəndaşın məsələsinin araşdırılmasını, həll olunmasını istəyə bilmirəm. Amma Milli Məclisin üzvü olan dostlar bunu edə bilirlər. Yaxud elə məqamlar var ki, beynəlxalq səviyyədə hansısa böyük bir təşəbbüs müzakirə edilir. Mən onu qaldıranda baxırlar adımın qarşısında "QHT təmsilçisi" var. Amma onu başqa bir deputat vasitəsilə qaldırdıqda daha ciddi qəbul edilir və işlər həyata keçir. Qısacası, Milli Məclisin deputatı olmadan da işlər görmək mümkündür. Amma bu status çox şeyi dəyişir. Bu status isə seçicilər tərəfindən əvvəlki seçkilərdən də göründüyü kimi, şəxsi maraqları üçün istifadə edənlərə deyil, ictimai maraqlar üçün istifadə etməyi bacaranlara verilməlidir.



***- Son olaraq parlament seçkilərindən gözləntiniz nədir?***

- Real və arzu olaraq gördüyüm gözləntilər var. Real gözləntim odur ki, Milli Məclisin tərkibi, seçki mühiti ciddi dəyişməyəcək, əvvəlki seçkilərdən daha sönük, sakit seçki keçəcək. Arzu etdiyim gözlənti isə ondan ibarətdir ki, seçkilərin keçirilməsində müsbət dəyişikliklər müşahidə olunsun, açıq, rəqabətli, canlı bir seçki mühiti görək, Milli Məclisin əvvəlki çağırışlarında nə Milli Məclisin işinə, nə Azərbaycana heç bir töhfəsi olmayan şəxsləri həm seçicilər, həm Milli Məclis, həm də Azərbaycan üçün daha faydalı ola biləcək şəxslər əvəzləsinlər. Azərbaycanı qarşıda iqtisadi, ictimai-siyasi, sosial, beynəlxalq əlaqələr baxımından ciddi, böyük sınaqlar gözləyir və bu sınaqların öhdəsindən gələ biləcək yeni tərkib görməyi arzulayıram.

❑ Əli RAİS

# Hökumət neftsiz iqtisadiyyatı necə qurmaq istəyir?

**Dünyada neftin qiymətinin kəskin ucuzlaşması və bu prosesin yaxın illərdə də davam edəcəyi ilə bağlı pessimist proqnozlar Azərbaycan hakimiyyətini ciddi düşündürür. Çünki qarşıdan 2016-cı ilin dövlət büdcəsinin formalaşdırılması gəlir ki, artıq "büdcəni neftə oturtmaq" mümkün olmayacaq. Üstəlik, Ermənistanla müharibə vəziyyətində olan ölkənin hərbi büdcəsində, eləcə də qaçqın və məcburi köçkünlərlə bağlı sosial layihələrdə ixtisarlar da qeyri-mümkündür ki, bu da hakimiyyəti əlavə maliyyə mənbələri axtarmağa vadar edir.**




# Iqtidarın antiböhran masası - iki çıxış yolu var...

## Qarşıdan 2016-cı ilin dövlət büdcəsinin formalaşdırılması gəlir ki, artıq "büdcəni neftə oturtmaq" mümkün olmayacaq; hakimiyyət son aylar beynəlxalq yük daşımaçılığı ilə məşğul olan iri şirkətlərin səhmlərinə külli miqdarda investisiya yatırıb; əkinə yararlı torpaq sahəsi istifadə edilmədiyi halda cərimə sanksiyaları tətbiq olunacaq

Doğrudur, bəzi ekspertlər Azərbaycanın kredit götürmək limitinin olduğunu və maliyyə böhranının yaşanmayacağını deyirlər. Amma kredit verilməsi şərtlərinin bir sıra fəsadları da var ki, bunun ən bariz nümunəsi Yunanıstandır. Bu səbəbdən də rəsmi Bakının Dünya Bankından və ya ayrı-ayrı dövlətlərdən kredit götürəcəyi indilikdə real görünmür. Bəs bu halda vəziyyətdən çıxış yolu nədir və hakimiyyət hansı qabaqlayıcı addımlar atır?

***

Məlumdur ki, iqtidar hələ 2009-cu ildən Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün ciddi addımlar atmağa başlayıb. Qeyr-neft sektorunun inkişafı üçün isə yeni Amerika kəşf etməyə ehtiyac qalmayıb. Əsas çıxış yollarından biri Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə edərək tranzit daşımaçılıqdan əldə edilə biləcək gəlirdir.

Məlumdur ki, ötən ilin sentyabrında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı olub. Bu liman Xəzər dənizində ən böyük ticarət limanıdır və bütün Xəzəryanı ölkələrə xidmət göstərir. Bu liman vasitəsilə ərazimizdən daşınan tranzit yüklərin həcmi artıq bir neçə dəfə artıb. Azərbaycan dəmir yolunun daha çox yük daşıyan hissəsi Bakı-Dərbənd sahəsidir. Dəmir yolu vasitəsilə əsasən neft tikinti materialları, filiz, qara və əlvan metallar, maşın və avadanlıq, ərzaq, tankerlər vasitəsilə neft daşınır. Buna paralel olaraq Bakı-Tiflis-Qars dəmir yolu tikintisi də artıq yekun fazaya daxil olub. Tikintisinə 2007-ci ildən başlanan bu nəhəng proyekt Azərbaycanı dəmir yolu vasitəsilə Avropa ilə birləşdirəcək. Azərbaycan Avropa ilə Asiya arasında bir dəmir yolu körpüsü olacaqdır. Bu dəmir yolunun işə düşməsi Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan böyük əhəmiyyət daşıyır. Dəmir yolu vasitəsilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa çıxış əldə edəcək. Dəmir yolu ilə bir günə Qarsa və iki gün yarıma İstanbula getmək mümkün olacaq.

Hesablamalara görə, dəmiryolu fəaliyyətə başlayandan sonra ən azı əlavə 10 milyon ton yük Azərbaycan ərazisindən keçəcək. Qarsda Azad Ticarət Zonasının yaradılması planı da var ki, bu həm Azərbaycana, həm də Qafqaza çox önəmli ticarət imkanları yaradacaq. Azad Ticarət Zonasına bir çox investorlar gələcək ki, bu da ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcək.

Ölkəmizin bölgədə Avropaya ən yaxın və ən sərfəli enerji dəhlizi rolunu oynaması, nəhəng layihələrin gerçəkləşməsində həlledici söz sahibi olması da qlobal neft böhranında Azərbaycanın büdcəsinə milyardlarla vəsait daxil olmasına imkan verir.

Məlumatlara görə, Azərbaycan hakimiyyəti son aylar beynəlxalq yük daşımaçılığına xeyli investisiya yatırıb. Dünya okeanlarında nəhəng neft və digər yük daşımaçılığı ilə məşğul olan iri şirkətlərin səhmlərinə külli miqdarda investisiya yatırılıb. O cümlədən, xüsusilə Avropada quru yolla yük daşımaçılığında xeyli gəlir əldə edən Türkiyədə bu işə ciddi maliyyə yatırımları edilib.

***

Vaxtilə SSRİ-də ən güclü sənaye potensialına malik Azərbaycan iqtisadiyyatının bu sahəsinin də inkişaf etdirilməsinə real imkanlar var. Son zamanlar ölkədə sənayeləşmə prosesi nəticəsində qeyri-neft sənayesi 14 faiz artıb. Yaxın illərdə ölkənin hər bir rayonunda sənaye zonalarının və sənaye parklarının yaradılması nəzərdə tutulur ki, bu da öz növbəsində daha yüksək nailiyyətlərə yol aça bilər. Sənayenin inkişafı isə yerli və xarici iş adamlarından asılıdır. Azərbaycanda biznes mühiti inhisarlaşıb və iri sənaye obyektləri də bu və digər dərəcədə məmur-oliqarxlara bağlıdır. Bu isə istər-istəməz inkişaf və rəqabət prosesini tormozlayır. Rüşvət və inhisarçılıq aradan qalxmadıqca iqtisadiyyatı gücləndirmək mümkünsüzdür. Prezidentin bir neçə dəfə xəbərdarlığına baxmayaraq, iqtisadiyyatda monopoliyanı aradan qaldırmaq mümkün olmur. Amma batan və ya təhlükə ilə üzləşmiş gəmini xilas etmək üçün kapitan hətta gəmi heyətini belə açıq dənizə atmaqda səlahiyyətlidir... Beynəlxalq Bank işində iqtidarın heç kimə güzəşt etməməsi bunu təsdiq edir...

***

Neftdən asılı olmayan ikinci mühüm model isə ölkənin kənd təsərrüfatının inkişafıdır. Bu il ölkədə "Kənd təsərrüfatı il" elan olunub. Prezident kənd təsərrüfatının inkişafı üçün bu il çox önəmli fərman imzalayıb. Dövlətin dəstəyi ilə iri fermer təsərrüfatları yaradılır. Fermerlərə torpaq vergisindən başqa digər vergilər tətbiq olunmur. Kənd təsərrüfatı və qida sənayesində istifadə olunmaq məqsədilə ölkəyə idxal olunan müəyyənləşdirilmiş məhsul və avadanlıqlar üçün gömrük rüsumu və ƏDV də yoxdur.

Azərbaycan ərazisinin 54,3 faizi isə aqrar sahə üçün yararlı torpaqlardır. Üstəlik, hazırda ölkə əhalisinin 47 faizi aqrar bölgələrdə yaşayır. Kənd təsərrüfatında çalışan işçilər ümumi məşğul əhalinin 37,1 faizini təşkil edir. Sahibkarlığın stimullaşdırılması, güzəştli kreditlərin verilməsi, fermerlərə subsidiyaların ayrılması üzrə ciddi tədbirlər görülür. Son illər aqrar sahədə islahatların həyata keçirilməsi nəticəsində müəyyən inkişaf təmin edilib, heyvandarlıq və bitkiçilikdə struktur dəyişiklikləri baş verib, məhsul istehsalının artırılmasında nailiyyətlər əldə edilib. Azərbaycanın özünü ərzaq məhsulları ilə tam təmin etmək, həmçinin xaricə məhsul ixrac etmək üçün bütün imkanı var. Xüsusilə son bir neçə ildə aparıcı ölkələrdə maliyyə bazarında baş verən neqativ meyllər, Avropaya üz tutan miqrantların sayının astronomik həddə artması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu, təbii fəlakətlər və digər səbəblər kənd təsərrüfatı məhsullarının dünya bazarlarında qiymətinə təsir edib. Bu baxımdan da hakimiyyət Azərbaycanda əhalinin etibarlı ərzaq təminatını daxili imkanlar hesabına ödəməyi düşünür. Bugünlərdə Avropa İttifaqının Bakıdakı nümayəndəliyindən bildiriblər ki, Aİ ölkələri Azərbaycandan qida məhsullarının ixracında maraqlıdırlar. Bu isə bir il yarım müddətində aqrar sahədə baş verən müsbət dəyişikliklərlə bağlıdır.

Kənd təsərrüfatının inkişafı prosesi iki əsas sahəyə - əkinçiliyə (yaxud bitkiçilik) və heyvandarlığa bölünür. Bu sahələr arasındakı nisbətə görə Avropa ölkələri arasında kəskin fərqlər var. Bu da ilk növbədə əmək, yaxud kapital tutumundan, yerli təbii şəraitin xarakterindən asılıdır. Müasir aqrotexniki qaydalardan və elmi nailiyyətlərdən geniş istifadə edən Qərbi Avropa və Şərqi Avropa ölkələrinin əksəriyyətində heyvandarlıq əkinçilikdən kəskin surətdə üstünlük təşkil edir. İspaniya, Portuqaliya, Yunanıstan, xüsusilə Yaponiya kənd təsərrüfatında əkinçilik başlıca rol oynayır. Bu baxımdan da Azərbaycan həm əkinçiliyin, həm də heyvandarlığın paralel inkişafına çalışmalıdır.

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyi ölkədə istifadə olunmayan yararlı torpaqlara görə İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi ilə bağlı hökumətə təkliflər təqdim edib. Fins.az-ın "Report"a istinadən məlumatına görə, bu barədə kənd təsərrüfatı nazirinin müavini **İlham Quliyev** bildirib. Nazir müavini deyib ki, yaxın zamanlarda məcəllədə bununla bağlı dəyişikliklər ediləcəyi gözlənilir.

Onun sözlərinə görə, əkinə yararlı istifadə olunmayan torpaq sahəsinə görə cərimə sanksiyalarının tətbiq olunması nəzərdə tutulub: **"Bu da yəqin ki, torpaqların istifadəsinə öz təsirini göstərəcək".** Aydındır ki, yalnız bu cür inzibati yollarla kəndlini istifadəsiz torpaqları əkib-biçməyə həvəsləndirmək mümkün deyil.

Belə görünür ki, hökumət hamını yedirib-doyurmağa məsul olsa da, yaxınlaşmaqda olan hansısa iqtisadi böhranın məsuliyyətini tək öz üzərinə götürməyə meylli də deyil...

❑ "Yenİ Müsavat"



# İsa Qəmbərin keçmiş və indiki seçki rəqibləri danışdılar

## **Əli Əliyev:** "Hələlik bir məsələni deyə bilərəm ki, o vaxt İsa bəy daha güclü idi". **Elşən Mustafayev:** "Bu dəfə İsa bəyin 15 saylı dairədən namizədliyini verəcəyini gözləmirdim"

**Xəbər verdiyimiz kimi, artıq Müsavat Partiyası ötən həftə sonu Məclisdə 73 dairədən namizəd siyahısını açıqlayıb. 30 dairə üzrə isə yaxın günlərdə qərar veriləcəyi gözlənilir. Ümid Partiyası, Böyük Quruluş Partiyası, Azərbaycan Demokrat Partiyası, AMİP və "Azadlıq 2015" blokunun artıq seçkilərdə iştirak edəcək namizədləri məlumdur. REAL Hərəkatının isə sentyabrın 2-də namizədləri bəlli olacaq. Qeyd edək ki, hələ ki adıçəkilən partiyaların ilkin siyahısı hazırlanıb. Seçki prosesində dairələr üzrə dəyişiklik, yaxud da başqa dairələr üzrə yeni namizədlərin irəli sürüləcəyi gözləniləndir.**

Hazırda isə bütün ictimaiyyət və seçkidə iştirak edəcək tərəflər hakim Yeni Azərbaycan Partiyasının namizədlərinin açıqlanmasını gözləyirlər. Qeyd edək ki, partiya rəsmiləri bu həftə ərzində namizədləri ictimaiyyətə təqdim edəcəklərini bildiriblər.

Müsavat Partiyasının deputatlığa namizədləri siyahısında başqan Arif Hacılı ənənəvi seçki dairəsi olan 110 saylı Zaqatala seçki dairəsindən deyil, 33 saylı Xətai seçki dairəsindən namizəd irəli sürülüb. Sabiq başqan İsa Qəmbər isə seçki dairəsini dəyişməyib. Müsavatın siyahısında İsa Qəmbərin 15 saylı Yasamal seçki dairəsindən namizədliyi irəli sürülüb.

Qeyd edək ki, İsa Qəmbər 2010-cu il parlament seçkilərində də 15 saylı dairədən deputatlığa namizəd olub. Həmin seçkilərdə İsa Qəmbərin rəqibi olmuş müxalifətçilərdən ikisi yenidən 15 saylı dairədən namizəd olacaqlar. Bunlar VİP sədri Əli Əliyev və AMİP katibi Elşən Mustafayevdir.

**Onlar İsa Qəmbərlə eyni dairədə yenidən üz-üzə gəlmələrinə münasibət bildiriblər. "Yeni Müsavat"a açıqlamasında Əli Əliyev İsa Qəmbərin namizədliyinin adıçəkilən dairədən irəli sürülməsinə normal yanaşdığını bildirdi:** "Hər bir şəxsin fərdi qərar hüququ var, bu hüquqa sayğılı olmaq lazımdır. Biz 2010-cu il parlament seçkilərində həmin dairədə rəqib olmuşuq. Əslində dairə üzrə rəqabət yalnız ikimizin arasında olub. Real seçki nəticələri hər ikimizə bəllidir. Hələlik seçki dairəsi barədə qərarım olmadığından, o nəticələr barədə danışmaq istəmirəm. Lakin 15 saylı dairədən getsəm, daha detallı açıqlamam olacaq. Hələlik bir məsələni deyə bilərəm ki, o vaxt İsa bəy daha güclü idi. Yadınızdadırsa, o zaman seçkilərə başqa bir partiya ilə tandemdə qatılırdı. Müsavat Partiyası, indi tək gedir, onda cənab Qəmbər başqan idi, indi deyil, partiya qurultay "zəlzələsini" yaşamamışdı, indi xeyli yıpranıb. Sadaladıqlarımın hər biri İsa Qəmbərin ziyanına olanlardır. 2010-cu ilin real nəticələrini bildiyimdən, mənzərə məni "həvəsləndirir". Lakin YAP-ın namizəd siyahısı və hakimiyyətin kölgə favoritlərinin də bilinməsi mühümdür. Əgər ciddi namizədlər olmasa, seçimim o dairədə də qala bilər. Hələ yekun qərarıma ən azı 1 həftə var. Hazırda informasiya yığımı ilə məşğuluq".

**AMİP katibi Elşən Mustafayev öncə İsa Qəmbərə uğurlar arzuladı, sonra isə bildirdi ki, güclü rəqiblə mübarizə aparanda insan daha da güclənir və güclü mübarizə aparmaq iqtidarında olur:** "Bu baxımdan mənim üçün bir narahatlıq yoxdur. Onu da deyim ki, bu dəfə İsa bəyin 15 saylı dairədən namizədliyini verəcəyini gözləmirdim. Mən həmişə belə bir fikirdə olmuşam ki, ölkə miqyaslı seçkilərdə iştirak eləyən tanınmış siyasi liderlərin dairə səviyyəsində seçkilərdə iştirakı adətən problemli olur. Bir də görürsən ki, ölkə miqyasında tanınmayan bir adam konkret dairədə deputatlığa namizəd olur və həmin dairədə yaşayan yaxınlarının, qohumlarının hesabına səs toplayır və ölkə miqyaslı seçkilərdə iştirak etmiş, yüksək səs qazana bilmiş siyasətçinin imicinə bu vəziyyət heç də müsbət təsir eləmir. İsa Qəmbərin hansı seçkidə, hansı dairədən namizəd olması onun hüququdur və bu hüquqa hörmət etmək lazımdır. Mən məmnuniyyətlə həmin dairədə onunla sağlam seçki mübarizəsi aparmağa hazıram".

E.Mustafayev təklif etdi ki, İsa Qəmbər və 15 saylı dairədə demokratik düşərgədən olacaq digər namizədlər seçkinin müşahidəçiliyində əməkdaşlıq etsələr, ümumi işin xeyrinə olar. Seçkilərin müşahidəçiliyində əlaqəli fəaliyyət vacibdir.

❑ Etİbar SEYİDAĞA

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015



Hacıbala Abutalıbov

# Hacıbala Abutalıbov Ali Məhkəmənin qərarını icra etmir

## Bakının icra başçısı vətəndaşa ödəməli olduğu 24 min manatı vermir

**Azərbaycan məhkəmələrində respublikamızın adından çıxarılan qərar, qətnamə, hökmlərin icra olunmaması problemi yaşanır. Vətəndaş ədalət axtarışında məhkəməyə üz tutur, sənəd toplayır, vəkillərə pul xərcləyir, əsəbləri gərilir və ümidlə gözlədiyi məhkəmənin yekun sənədi ortaya çıxır. Artıq ədalətin təntənəsi olan sənədi əlinə alan vətəndaşın sevinci çox sürmür. Çünki həmin sənəddə yazılanların bir icra məsələsi də var. Ədliyyə Nazirliyində, üstəlik, baş idarə kimi fəaliyyətdə olan - İcra Baş İdarəsi də mövcuddur.**

Amma məhkəmədə mübahisələndirilən məsələdə sabiq müdafiə naziri Səfər Əbiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşı tərəf olubsa, vətəndaş məhkəmə hökmünü, qərarını, qətnaməsinin icrasını görmək üçün həddən artıq dözümlü və uzunömürlü olmalıdır.

İcra Baş İdarəsi bu vəzifə sahiblərinə toxunan və respublikamız adından çıxarılan qətnamələri, hökmləri, qərarları icra etməkdə aciz görünür.

Redaksiyamıza müraciət edən Bakı sakini İnşallah Hüseynov 2 ildir ki, Bakı Şəhər İcra Hakimiyyətindən ona ödənməli olan 24 min 180 manatı ala bilmir. İ.Hüseynov deyir ki, Hacıbala Abutalıbovun 15.02.2011-ci il tarixli, 71 saylı sərəncamına əsasən Səbayel rayonu, Aqil Quliyev küçəsindəki 5 saylı bina sökülüb. Həmin binanın sakini kimi köçürülmə komissiyasının üzvü İsmayılov Zülfəli Üzeyir oğlu ilə aralarında notarial qaydada alqı-satqı müqaviləsi bağlanıb, onun tərəfindən mənzil 120 min 900 manata satılıb. BŞİH-in 71 saylı sərəncamına əsasən həmin binanın yerləşdiyi torpaq dövlət ehtiyacları üçün alınmış olsa da, prezidentin 26.12.2007-ci il tarixli fərmanının 2.3-cü bəndinə müvafiq olaraq satınalma qiymətinə 20 faiz miqdarında hesablanan 24 min 180 manat əlavə haqq ödənilməyib. Evi sökülən İ.Hüseynov 2013-cü ildə cavabdeh BŞİH-ə qarşı iddia ərizəsi ilə 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə müraciət edib, cavabdehdən 36 min 270 manat əlavə ödənişin ona ödənilməsi barədə qərar çıxarılmasını xahiş edib. Məhkəmə iddianı təmin edib. BŞİH dövlət və ictimai ehtiyaclar üçün İ.Hüseynovdan aldığı mənzilə görə qanunvericilikdə nəzərdə tutulmuş daşınmaz əmlakın hər bir kvadrat metri üçün 30 faiz miqdarında ona əlavə ödəmələr etməlidir. Qərarla bu ödəmələrin hesablanması BŞİH-in özünə həvalə edilib. Qərardan BŞİH apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsi İnzibati-İqtisadi Kollegiyasının 24 aprel qərarı ilə BŞİH-in apelyasiya şikayəti qismən təmin edilib. İddiaçı İ.Hüseynova məxsus ümumi sahəsi 75, 58 kvadret metr olan mənzilin 120 min 900 manat məbləğində satınalma qiymətinə hesablanmalı olan 20 faiz miqdarında, yəni 24 min 180 manat məbləğində əlavə haqqın ödənilməsi vəzifəsi BŞİH-ə həvalə edilib. Hacıbala Abutalıbovun hüquqşünasları məsələni Ali Məhkəməyə qədər mübahisələndiriblər. Lakin son qərarda vətəndaşa 24 min 180 manat məbləğində əlavə haqq ödənilməli olduğu göstərilib.

İ.Hüseynov deyir ki, bütün instansiyalara müraciət edərək ona çatacaq kompensasiyanın ödənilməsini istəyib. Amma nəticə olmayıb: **“Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin rəhbərliyi və Səbayel rayon İcra Şöbəsi Hacıbala Abutalıbovun qarşısında acizdirlər. Prezident 2007-ci ildə fərman verib, məhkəmə də həmin fərmana əsasən mənə kompensasiya ödənməli olduğunu qərarında yazır. Hacıbala Abutalıbov isə qərarı icra etmir. Ona görə də prezidentdən xahiş edirəm ki, fərmana və Ali Məhkəmənin qərarına hörmətsizlik edən BŞİH-in başçısı Hacıbala Abutalıbov barəsində tədbir görülsün və mənim kompensasiyam ödənilsin”.**

❑ E.MƏMMƏDƏLİYEV



Nadir İbrahimov

# Biznesmenin qətlində adı keçən qadın danışdı

## Həbibə Bağırova: “Qətl hadisəsi mənim üstümdə baş verməyib”

**“Butastone” tikinti şirkətinin təsisçilərindən biri olan 1975-ci il təvəllüdlü Nadir İbrahimovun qətl işində adı keçən qadın danışıb. Həbibə Bağırova milli.az-a açıqlamasında Nadir İbrahimovla tanışlığı, eyni zamanda qətl ətrafında adının hallandırılmasına münasibət bildirib: “Nadirin qətlinin mənimlə heç bir əlaqəsi yoxdur. Qətl hadisəsi mənim üstümdə baş verməyib. Düzdü, əvvəllər Nadir İbrahimovun "Butastone" şirkətində işləmişəm. Oradan ayrılandan sonra Nadir məni bir müddət narahat edib. Ancaq Rövşən Həsənov adlı şəxsi, ümumiyyətlə, tanımıram".**

H.Bağırova qətldə onun adının məqsədli şəkildə hallandırıldığını və qətldən sonra istintaqa cəlb edildiyini açıqlayıb: “Hadisə baş verən gün prokurorluğa çağırıldım və izahat verdim. Dindirilməyimə səbəb isə mənim əvvəllər Nadirlə bir şirkətdə işləməyim olub. Mən kiminsə ailəsini dağıtmaq, başqa birinin isə öldürülməsini istəmərəm. Öz işim-gücüm, ailəm və ətrafım var”.

Qətlə bağlı bəzi təfərrüatlar da üzə çıxıb. Sayt yazır ki, əslində qanlı olay söyüşdən qaynaqlanıb. Əsəbləşən Rövşən isə onunla Nizami rayonu ərazisində görüş təyin edib. Elə görüş yerinə gələn kimi Nadirə maşınından düşməyə imkan verməyib. Tapança ilə onu elə maşının sükanı arxasında öldürüb. Məlumata görə, Rövşən Həsənov SAB kolbasa zavodunun direktoru Hacı Sabirin kürəkənidir. Hadisəyə gəlincə, Nadir İbrahimov idarə etdiyi “Lexus” markalı, Az 90 SF 333 dövlət nömrə nişanlı avtomobilində güllələnib. Başqa bir “Lexus” markalı, Az 10 VM 006 dövlət nömrə nişanlı maşının sürücüsü Rövşən Həsənov ona tapança ilə 8 güllə vurub.

Hadisə yerindən özünə məxsus “Lexus” markalı avtomobillə uzaqlaşarkən “Chevrolet” markalı avtomobillə toqquşub. Baş vermiş yol-nəqliyyat hadisəsi zamanı xəsarət almış “Chevrolet”in sürücüsü xəstəxanaya yerləşdirilib.

Hadisəni törədən Rövşən Həsənov könüllü olaraq Nizami Rayon Polis İdarəsinin 25-ci polis bölməsinə gələrək istintaqa təslim olub. O, “Makarov” markalı tapançanı və patron darağını təhvil verib.

Mərhum N.İbrahimov biznesmen Nizami Piriyevin qaynı olan Namiq Əsədovun şəriki idi. 2 uşaq atası olan Nadir məşhur müğənni Azər Zeynalovun qaynıdır.

Nadir İbrahimov və Namiq Əsədov “Butastone” şirkətinin həmtəsisçiləri olublar. Onlar arasında konflikt var idi. N.İbrahimov öz şəriki Namiq Əsədovu fəhlələrin maaşını verməməkdə ittiham edirdi. Tərəflər arasında səngiməyən mübahisə məhkəməyə qədər gedib çıxıb və nəticədə Nadir İbrahimov məhkəmədə iddia qaldıraraq Namiq Əsədovla birgə çalışdığı müddətdə “Akkord” şirkəti üçün gördükləri tikinti işlərindən alacaqları 200 min manata yaxın pula həbs qoyulmasını tələb edib. Məhkəmə isə onun iddiasını təmin edib.

❑ E.HÜSEYNOV

# Qazaxıstanda qul durumuna düşən fəhlələrin yeməyini də kəsiblər

## “Əgər iş icazəsi alınmasa, yolda, şəhərdə bizlərdən kimi tutsalar deportasiya edəcəklər”

**“EVRASCON” ASC-nin xətti ilə Qazaxıstanın Almatı vilayətinə işləməyə gedən 180 azərbaycanlı fəhlənin taleyi haqda yeni xəbər almışıq. Almatı vilayətinin Jarkənd şəhərində xoşagəlməz duruma düşən fəhlələrdən biri deyib ki, Azərbaycan mətbuatında üzləşdikləri problem haqda yazıların dərcindən sonra vəziyyət dəyişib.**



Abid Şərifov

“Artıq həbslər dayanıb, bizləri tutub məhkəməyə aparmırlar. Polis hələ ki bizləri narahat etmir. Çox güman ki, polislərin pulu verilib. İdarə buradakı polisi rüşvət gücünə ələ ala bilib. 10 gün ərzində bizlərə iş icazəsi alacaqlar. Əgər icazə alınmasa, yolda, şəhərdə bizlərdən kimi tutsalar deportasiya edəcəklər” -deyə fəhlə bildirib.

Onun sözlərinə görə, hazırda vəziyyət yaxşılığa doğru dəyişsə də, hər an pisləşə bilər: **“Kefləri istədiklərini edirlər. Özlərini elə göstərirlər ki, guya hər şey yaxşıdır. Gizlin şəkildə Azərbaycan mətbuatına məlumat vermiş şəxsi axtarırlar”.**

Fəhlə ümumilikdə “EVRASCON”da vəziyyətin yaxşı olmadığını da söylədi: **“Bilirik ki, baş idarədə vəziyyət ağırdır. Bakıda işçilərə günorta yeməyi verirdilər. Artıq bu qaydanı ləğv ediblər, maaşları kəsiblər. İşçilərin ixtisarı gedir”.**

Qeyd edək ki, 180 azərbaycanlı fəhlə 4 ay əvvəl “EVRASCON” ASC-nin xətti ilə Almatıya aparılıblar. 15 gün əvvəl isə Qazaxıstan Miqrasiya Xidmətinin əməkdaşları azərbaycanlı fəhlələrin işçi icazəsinin olmadığını aşkar edib. Qanun pozuntusuna görə azərbaycanlı fəhlələri saxlayıb məhkəmə qarşısına çıxarıb cərimələyiblər. Lakin fəhlələrin cərimə ödəməyə pulları olmadığından azərbaycanlı fəhlələr bir neçə sutkalığa həbs olunurdular. “EVRASCON” şirkətinin baş nazirin 1-ci müavini Abid Şərifova bağlılığı haqda məlumatlar var. A.Şərifov yayılan məlumatları təkzib etmir. O, 180 fəhlənin durumu ilə bağlı “Yeni Müsavat”ın sorğusunu cavablandırıb. “EVRASCON” ASC-nin Direktorlar Şurasının sədri İsmiyev İsmayıl - Əfəndi Hacımurad oğlu ilə əlaqə saxlayan vitse-primyer demişdi ki, belə bir hal yoxdur. Bundan sonra redaksiyamızla əlaqə saxlayan fəhlələr A.Şərifova yalan məlumat verildiyini bildirmişdilər.

Yada salaq ki, bu şirkət Azərbaycanda nəqliyyat infrastrukturunun tikintisi sahəsində iri layihələrin həyata keçirilməsi ilə məşğul olan “Azərkörpü” ASC-dir. Sadəcə, adını dəyişib. Yeni adı “EVRASCON” ASC-dir. “Azərkörpü” Bakı şəhərində SSRİ-nin Nəqliyyat Tikintisi Nazirliyi yanında 1968-ci ildə yaradılıb və fəaliyyətə “Körpütikintidəstəsi-100" kimi başlayıb. Bu müddət ərzində müəssisə Azərbaycanda nəqliyyat infrastrukturunun tikintisi sahəsində təcrübə toplayıb. 2001-ci ildə həyata keçirilən özəlləşdirmə nəticəsində şirkət səhmdar cəmiyyət statusunu alıb. Şirkət 5 min 423 nəfərlə müqavilə bağlayıb. Şirkətin baş nazirin müavini Abid Şərifovun patronajlığı altında fəaliyyət göstərməsi barədə məlumatlar var.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015

# Ümid seçkidə iştirakla bağlı sənədləri MSK-ya təqdim etdi

**Avqustun 31-də günün ikinci yarısında Ümid Partiyası qanunvericiliyə uyğun olaraq 1 noyabr 2015-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə iştirakla bağlı zəruri sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etdi.**

Qeyd edək ki, avqustun 30-da Ümid Partiyasının Ali Məclisi partiyanın parlament seçkilərində iştirakı ilə bağlı qərar qəbul edib və deputatlığa namizədlərin siyahısını təsdiqləyib.








## Ümid seçkilərə rəsmən start verdi



**Avqustun 30-da Ümid Partiyasının Ali Məclisi növbəti sessiyasını keçirib. Sessiyada partiyanın parlament seçkilərində iştirakı ilə bağlı qərar qəbul edilib, deputatlığa namizədlərin siyahısı, səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təsdiqlənib.**

## Partiya parlament seçkiləri ilə bağlı müşavirə keçirdi

**Şənbə günü Ümid Partiyasının mərkəzi qərargahında partiya tərəfindən parlament seçkilərində namizədliyi irəli sürüləcək şəxslərin iştirakı ilə növbəti müşavirə keçirilib. Partiya sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi ilə keçirilən müşavirədə seçkilərə hazırlığın son mərhələsi, görülən işlər, qarşıya çıxan problemlər , qarşıda duran vəzifələr seçkilərə start verildikdən sonra görüləcək işlər müzakirə olunub. Partiya sədri seçki mərhələsi üçün namizədlərə tapşırıq və tövsiyələr verib.**



Qeyd edək ki, ötən il keçirilən bələdiyyə seçkilərindən dərhal sonra Ümid Partiyası bu il keçiriləcək parlament seçkilərinə hazırlıqlara başlayıb. Hazırlıqlar bir neçə mərhələdən ibarət olub. Hər mərhələnin sonunda yekunlarla bağlı partiyanın mərkəzi qərargahında genişləndirilmiş müşavirə keçirilib. Namizədlikləri irəli sürüləcək şəxslərin ayrı-ayrılıqda görülən işlərlə bağlı hesabatları dinlənilib, yaranan suallar partiya sədri tərəfindən cavablandırılıb, habelə, qarşıya çıxan və çıxa biləcək problemlər müzakirə edilib.



# Niyə kitab oxumuruq?

## MİF, yoxsa GERÇƏKLİK; "Dünyanı idarə edən, qələm, mürəkkəb və kağızdır"

**Belə bir sualla qarşılaşdıqda hər kəsin özünə görə bir bəhanəsi olacaq. Kimisi kitabların bahalı olduğu, kimisi zaman tapa bilmədiyi, kimisi də işdən yorğun-arğın gəldiyi kimi... Qərbdə insanlar pulqabı daşıyır kimi kitab daşımaqdadır. Bəs niyə bizdə belə deyil?**

**Fəxrəddin Abdullayev**
Ümid Partiyası Analitik şöbəsinin müdiri



Bəlkə də hər şeyi etirazsız qəbul edən, araşdırmayan və sorğulamayan bir cəmiyyət olmamız bəzilərinin maraqlarına uyğun gəlməkdədir. Kim bilir? Amma bu bir həqiqətdir ki, savadsız cəmiyyəti əsarət altında saxlamaq çox asandır. Türk dünyasının fikir atalarından olan Yusif Balasanqulu özünün "Qutdagudu Bilik" əsərində vurğuladığı kimi: ölkələr qılıncla fəth olunar, qələmlə idarə olunar. Təəssüflər olsun ki, zamanlar bizim olanlar bizdən olmayanların əlinə keçmiş, ondan bəhrələnmiş və daha sonra o qiymətli hikmətlərdən bizə qaşı silah kimi istifadə etmişlər.

İllərlə kitabdan, yaradıcılıqdan və mədəniyyətdən təcrid etmiş, günümüzdə də hər vasitə ilə bu adətlərini diqtə etdirməkdə davam edirlər. Kitab oxumaq hər şeydən əvvəl səbir istəyən bir işdir. Halbuki oxumaq insanın fərdi inkişafını təmin edən əhəmiyyətli faktordur. İnsanın düşüncə quruluşunu və xəyal dünyasını inkişaf etdirir. Bu həm də söz xəzinəsini zənginləşməsi deməkdir. Axı bizimdə xoşbəxt olmaq hüququmuz, ədalətli cəmiyyət yaratmaq qayəmiz var dostlar! Bunun üçün biz gənclər özümüzdən sonrakılar deyərək yox! Əvvəla özümüzə nümunə olaq və daha sonra gələcəyimizə örnək. Nəticə etibarı ilə biz hər sahədə (elm, sənət, idman, ədəbiyyat, siyasət, təhsil, din, əxlaq v. b) həm ölkəmizdə həm dünyada təsirli və yetkin insanlar olmaq üçün oxumalıyıq. Demokratiyanın yerləşməsi üçün oxumalıyıq; çünki biz oxuduqca təfəkkürləşəcəyik, bu təfəkkürlə yetişən insanlar demokratiyadan əsla əl çəkməyəcəklər.

Dilimizi qorumaq üçün oxumalıyıq, çünki oxuduqca öz dilimiz inkişaf edəcək, xarici sözlər və jarqolar yox olacaqlar. Ünsiyyətimizi inkişaf etdirmək üçün oxumalıyıq çünki oxumaq hədəfimizi təmin edər. Uşaqlarımızla vaxt keçirib onları tanımaq üçün oxumalıyıq. Yoldaşlarımız ilə vaxt keçirib onları tanımaq üçün oxumalıyıq. Həyatı dolu dolu yaşamaq üçün oxumalıyıq. Əlimizdəkilərlə xoşbəxt olmanı bacara bilmək üçün oxumalıyıq. Həzz almaq üçün oxumalıyıq; çünki kitab oxuyaraq həzz almayanlar başqa əyləncə sahələri axtararlar. Həyatı sorğulamaq üçün oxumalıyıq. Çünki sorğulanmamış bir həyat yaşanmağa dəyməz.

Bu informasiya çağında Azərbaycan cəmiyyəti olaraq dünya üzərində yaxşı bir imic əldə etmək istəyiriksə mütləq oxumaq məcburiyyətindəyik.

Başqa yolumuz yoxdur...

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015



# Benzin niyə bahadır

Zamin HACI
zaminhaci@gmail.com

**Prezident Milli Məclisə seçkinin vaxtını elan edən kimi Rusiya xarici işlər naziri Lavrov əkə Bakıda peyda oldu. Qarabağda ortalığa belə qəfil çıxan adamların biədəb adı var, yazmaq mümkün deyil. Amma ədəbli ifadə ilə də Lavrovun səfərini işıqlandırmaq mümkündür: "Məscid tikilməmiş kor əsasını dayadı".**

Doğrudan da yapistlərin hakimiyyəti ələ keçirdiyi son 22 ildə uca millətimiz bir növ adətkərdə olubdur. Hansısa seçki elan edilən kimi Rusiyadan bir yüksək rütbəli məmur gəlir, prosesi Putinin *(Yeltsinin, Medvedyevin, Orenburq vilayətinin goburnatının - müxtəlif şəxslər ola bilər - Z.H.)* istədiyi şəkildə düzür, qoşur, cəhənnəm olur gedir. Bu şimallı emissarlar hər şeyi ölçüb-biçirlər, hətta hansı müxalifət qayırmağı, gerçək müxalifət olsa onu necə boğmağı da yapistlərə öyrədirlər.

Kimsə deyə bilər, əşi, Rusiya planetin altıda birini tutan heyvərə dövlətdir, onun nəyinə gərəkdir bir vilayətinin yarısı boyda olmayan Azərbaycanda deputatxanada hansı çoban oturacaqdır. Deyin. Bizdə söz azadlığı var. Bunun əsas sübutlarından biri hazırda zindanda 10-a yaxın jurnalistin saxlanmasıdır. Amma Rusiya doğrudan çox xırdaçı, formalist-pedant bir dövlətdir *(Əslində bütün imperiyalar elə bu cür xırdaçı olur, əks halda, imperiya qurub saxlaya bilməzlər, ancaq bu, ayrı mövzudur, bunu araşdırmağı AMEA Tarix İnstitutunda muğamat oxuyan bekar alimciklərə tapşıraq).* Elə bu xırdaçılıq da Rusiyaya insanlıq, sivilizasiya masasında öz yerini tutmağa mane olur, rus xalqını cürbəcür gic diktatorları dəstəkləməyə məcbur edir. Böyük, bəşəri ideyalarla yaşamaq əvəzinə, axmaq missiyalarla məşğuldurlar.

Geopolitika haqda bu qədər, zəhləmiz gedən işlə məşğul olmayaq. Ən düzgünü budur Şəkidə son vaxtlar olan mistik festivalları düşünək. Nağara festivalı qurtarandan sonra Şəkidə motosiklet festivalı qayırdılar. Mən hələ də başa düşə bilmirəm, bunların Şəkiyə nə dəxli var. Bəyəm Şəkidə nəsə tarixi nağara məktəbi olub? Oxumamışıq. Ona qalsa Şamaxının Nağaraxana kəndində nağara festivalı keçirmək daha məntiqli idi - heç olmazsa kəndin adına görə. O cümlədən Şəkidə motosikletin, motoyarışların hansı ənənəsi var? Heç dəxli yoxdur. Amma nə məntiq gözləyirik? Yapistlər istəsələr Hacıqabulda meşə festivalı da keçirərlər. Ya da Qubada kenquru konfransı. Yiyəsiz ölkədir, kim-kimədir? İcra başçısının kefindən asılıdır.

İnşallah, gələn il neftin bareli 10 dollara düşər, o zaman Şəkidə neft festivalı da keçirərlər. Çünki belə başa düşdüm bizdə festivallar olmayan şeylər üzrə keçirilir. *(Dəli şeytan qulağıma mızıldadı ki, bir dənə Müxalifət Festivalının da yeri var. Amma mən dəli şeytana şapalaq vurub qovdum).* Neftin qiyməti düşdükcə ARDNŞ benzinin qiymətini salır. Həvəslənməyin, bizdə yox, Gürcüstan, İsveçrə, Ukrayna kimi ölkələrdəki zapravkalarında ucuzlaşma edirlər. Azərbaycanda isə benzin ucuzlaşmır. Millətimiz də çaş-baş qalır. Deyirlər, nəyə görə neftin qiyməti qalxanda benzin bahalaşdı, lakin neftin qiyməti düşəndə benzin ucuzlaşmadı. ARDNŞ niyə bizim cibimizə sakitcə girir, xaricilərdən isə qorxur?

Belə ucuz etiraz donquldanmaları savadsızlıq əlamətidir. Uca millətimizin, etiraf edək, savadı yoxdur. Bir kitab arası açmırlar. Nəticədə anlamırlar ki, bizdə benzin xaricdən baha olmalıdır. Bizdə maya dəyəri bahadır, ona görə! İzah edim, bisavadlar da oxusun.

Gürcüstanda sən bir litr benzin alırsansa bunun maya dəyərinə benzinin qiyməti, nəqliyyat xərci, vergi girir. Amma Azərbaycanda YDM-də satılan 1 litr Aİ benzinin maya dəyərində yuxarıdakılardan başqa da komponentlər vardır. Bunlar aşağıdakılardır:

10 qəpik - SR - sadə rüşvət;

15 qəpik - ÜYV - ümumi yaltaqlıq vergisi (yaltaqlara yardım üçün xüsusi fonda toplanır);

12 qəpik - PPF - polisin və prokurorun paket pulu fondu;

1 qəpik - YBNA - Yazıçılar Birliyi və Anar müəllimin qəlyan pulu;

0,5 qəpik - YJ - yaltaq jurnalistlər üçün;

5 qəpik - MB - manısları televizorda xodlamaq üçün yanacaq xərcləri;

10 qəpik - LT - Lavrovun torbasını doldurmağa;

20 qəpik - MT - Müxalifətə torba tikməyə;

Və sairə və ilaxır. Bu xərclər hamısı toplanır, benzini baha eləyir. Ucuz benzin istəyən millət bu şeylərdən imtina eləməyi bacarmalıdır. Bir əldə iki qarpız tutmaq olmaz, ya məsuliyyətli azadlığı seçin, ya da qul bekarçılığını. İkincinin birincidən qat-qat baha başa gəldiyini anlamaq şərtdir.

# MSK seçkilərlə bağlı Təqvim Planını hazırladı

## Exit-poll keçirmək üçün şərtlər açıqlandı

**Artıq iki gündür Azərbaycanda seçki kampaniyası başlanıb. Mərkəzi Seçki Komissiyası (MSK) Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsi üzrə tədbirlərin Təqvim Planını təsdiqləyib.**



MSK sədri Məzahir Pənahov xatırladıb ki, prezident İlham Əliyevin 28 avqust tarixli sərəncamına əsasən Milli Məclisə seçkilər bu il noyabrın 1-də keçiriləcək. Təqvim Planına əsasən namizədlərin irəli sürülməsi prosesi də artıq başlanıb. Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədləri sentyabrın 12-dən oktyabrın 2-si saat 18.00-dək dairə seçki komissiyalarına təqdim edilməlidir. Seçkiqabağı təşviqatın aparılmasına isə oktyabrın 9-da başlanacaq və 31 oktyabr saat 08:00-da dayandırılacaq.

Dünən MSK həmçinin bəyan edib ki, Azərbaycanda noyabrın 1-də keçiriləcək parlament seçkilərində exit-poll keçirmək niyyətində olan təşkilatlar akkreditasiya üçün sənədlərini oktyabrın 12-dək Mərkəzi Seçki Komissiyasına təqdim etməlidirlər.

Exit-poll keçirmək niyyətində olan təşkilatların MSK-ya yazılı müraciətinə təşkilatın hüquqi şəxs kimi qeydiyyatdan keçməsi barədə sənədin notariat qaydasında təsdiq olunmuş surəti, təşkilatın exit-poll keçirərkən tətbiq edəcəyi qaydalar, üsullar, resurslar *(exit-poll keçirən şəxslərin sayı, exit-poll keçirilərkən istifadə üçün nəzərdə tutulmuş maddi-texniki vasitələr və s.)* haqqında yazılı məlumat əlavə olunmalıdır.

Hər bir yazılı müraciətə daxil olduğu gündən başlayaraq 10 gün müddətində MSK tərəfindən baxılmalı, müraciətlə birgə təqdim olunmuş sənədlər araşdırılmalı və müvafiq təşkilatın akkreditasiyadan keçib-keçməməsi barədə əsaslandırılmış qərar qəbul edilməlidir. MSK səsvermə gününə ən azı 10 gün qalmışadək, yəni oktyabrın 22-dək exit-poll keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərar qəbul edəcək və oktyabrın 22-dək bu proses yekunlaşacaq.

Qeyd edək ki, "Azərbaycan Respublikasında seçkilərdə exit-poll keçirən təşkilatların akkreditasiyası Qaydaları"na əsasən bu sahədə ixtisaslaşmış, müvafiq təcrübəyə malik və nüfuzlu hüquqi şəxslər exit-poll keçirən təşkilat kimi çıxış edə bilər. Qeyri-hökumət təşkilatları və xarici hüquqi şəxslər seçkilər keçirilərkən exit-poll ilə əlaqədar tədbirlərdə "Qeyri-hökumət təşkilatları *(ictimai birliklər və fondlar)* haqqında" Qanuna, habelə Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq iştirak edə bilərlər. Həmin təşkilatların adından exit-pollun keçirilməsinə cəlb edilən şəxslər əsasən seçki hüququ və seçki sistemi üzrə mütəxəssis, yaxud bu sahədə müəyyən təcrübəsi olan şəxslər olmalıdırlar.

### Partiyalar fövqəladə vəziyyət rejimində

**Seçkidə iştirak edən partiyalar da işlərini MSK-nın müəyyən etdiyi Təqvim Planına uyğun quracaqlar. Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlının verdiyi məlumata görə, Müsavatın seçki ilə bağlı təqvim planı nisbətən konkretdir. Bu konkretlik MSK-nın qəbul etdiyi Təqvim Planına uyğun olur:** "Biz MSK-nın həmin sənədində seçki kampaniyası zamanı həyata keçirilməli olan prosedurlarla bağlı müəyyən edilmiş konkret günlər ki var, onu dəyişdirə bilmərik. İşimizi buna uyğun aparmalıyıq. Məsələn, MSK-nın Təqvim Planında namizədin qeydə alınması üçün sənədlərin təqdim olunmasının son müddəti oktyabrın 2-si saat 18.00-a qeyd edilib. Namizədlərin irəli sürülməsi, imza toplanması, sənədlərin toplanması, hazırlanıb təqdim olunmasını ən geci sentyabrın 30-na qədər həyata keçirməyə çalışırıq. Biz iki gün ehtiyat zaman götürmək istəyirik ki, hər hansı bir yanlışlıq olsa onu 48 saat ərzində həll etmək mümkün olsun. Bu da Seçki Məcəlləsinin tələblərinə uyğundur. Təbii ki, sonrakı mərhələ üçün də təqvim planımız olacaq. İndi əsas məsələ namizədlərin irəli sürülməsi üçün lazım olan sənədlərin hazırlanmasıdır ki, bu da xeyli vaxt və zəhmət tələb eləyən işdir. Dəfələrlə bizim təklif verməyimizə baxmayaraq MSK yenə də öz bildiyini edir-partiya tərəfindən namizədliyi irəli sürülən adamlar üçün MSK-ya verilməsi daha məqbul olan sənədlərin hamısının dairə seçki komissiyalarına verilməsini tələb edir. Bu absurddur. Lakin biz qanunauyğun olaraq sənədləri hazırlamağa çalışırıq".

**Seçki kampaniyasının müddətinin azlığı üzündən bir sıra prosedurların həyata keçirilməsi üçün müəyyən edilmiş vaxtın da azlığına diqqət çəkən Gülağa Aslanlı dedi ki, müxalifət bu problemin aradan qalxması üçün seçki kampaniyasının müddətinin 4 ay olmasını dəfələrlə təklif edib. Lakin bu təklif və tələblər qəbul edilməyib:** "Cəmi iki ay olan seçki kampaniyasında sənədlərin təqdim olunandan sonra beş gün ərzində təsdiq olunması qeyd olunub. Halbuki sənədlərin təsdiq olunması üçün bir gün vaxt kifayətdir. Beş gün vaxt ayrılması isə əlavə vaxt itkisidir".

G.Aslanlı onu da bildirdi ki, dairə seçki komissiyalarında hər bir namizədin səlahiyyətli nümayəndəsi də olacaq. Müsavat hazırda bu məsələnin həlli istiqamətində çalışır.

**"Azadlıq 2015" seçki blokunun təsisçilərindən olan Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev isə bildirdi ki, avqustun 31-də blokun üzvləri arasında rəsmi təsisat sazişi imzalanıb və təqvim planına uyğun iş aparılır:** "Prezident sərəncamından sonra rəsmən seçki mərhələsinə qədəm qoymuşuq. Təqvim planımıza müvafiq seçki hərəkətlərinə start verilib. Seçki bloku sentyabrın 1-də də toplanacaq. Deməli olar ki, fövqəladə rejimə keçmişik. Hər işimizi vaxtında görməyi planlaşdırırıq".

### YAP-dan bloklaşmanın yeni "tərif"i

**Hakim Yeni Azərbaycan Partiyasının icra katibi Siyavuş Novruzov isə müxalifət partiyalarının blok yaratmasını özünəməxsus tərzdə izah edib. Siyavuş Novruzov moderator.az saytına açıqlamasında deyib ki, müxalif partiyaların parlament seçkiləri ilə bağlı siyasi blok yaratması Seçki Məcəlləsinə uyğun olsa da, müxalifətin kifayət qədər potensiala malik olmamasından qaynaqlanır:** "Qarşıdakı parlament seçkiləri ilə bağlı bəzi partiyalar bloklar yaratmaq niyyətindədir. Bu məsələ Seçki Məcəlləsində də öz əksini tapıb. Seçki Məcəlləsində də göstərilir ki, siyasi partiyalar blok şəklində seçkilərdə iştirak edə bilərlər. Azərbaycanda müxalif siyasi partiyaların seçkilərdə siyasi bloklar şəklində iştirak etmək niyyətinin isə öz səbəbi var. Belə ki, partiya şəklində seçkidə iştirak etmək üçün ən azı 60 dairədən partiyanın namizədləri irəli sürülməlidir. Bu gün ölkədəki partiyaların əksəriyyəti ayrı-ayrılıqda 60 dairədən namizəd irəli sürmək potensialına malik deyillər. Bu namizədlər təbii ki, tanınmış insanlar olmalıdır. Onlar cəmiyyət tərəfindən qəbul edilməlidirlər. Bu baxımdan bəzi hallarda siyasi partiyalar, QHT rəhbərləri, media nümayəndələri, ziyalılar və s. seçkilərə blok şəklində qatılırlar.

«Siyasi Partiyalar haqqında» Qanunda dəyişiklik edilib. Burada siyasi partiyaların dövlət büdcəsindən maliyyələşmə məsələsi var. Əgər seçkilərdə iştirak edən partiya seçicilərin 3% səsini qazanarsa, o zaman siyasi partiyalara ayrılan maliyyənin 10%-ni ala biləcək. Bu da həmin partiyaların blok şəklində seçkilərdə iştirakına sitimul verir. Lakin hər zaman olduğu kimi, bu seçkilərdə də YAP-a alternativ yoxdur".

**8 partiyanın təmsil olunduğu "Azadlıq 2015" seçki blokunun təsisçilərindən olan AXP-nin sədri Pənah Hüseyn isə bu qənaəti bölüşmür:** "Mən Siyavuş Novruzovun həmin açıqlaması ilə tanış deyiləm. Bu fikri hansı kontekstdə səsləndirdiyini bilmirəm. Hələlik seçkiyə blok şəklində "Azadlıq-2015" seçki bloku getmək niyyətindədir ki, burada da bəzi partiyalar birləşib. Seçkilərə siyasi partiyanın nə qədər namizədlə qatılması ilə bağlı məhdudiyyət qoyulmayıb. Bizim qüvvələrimizi birləşdirməyimizə səbəb seçki prosesində daha səmərəli iştirak etmək, daha ciddi uğur qazanmaqdır. Lakin müxalif partiyaların yetərincə potensiala malik olmadığı üçün seçkilərə blok şəklində qatılması fikrini yanlış hesab edirəm".

❑ Etibar SEYİDAĞA



# Kreml Bakıya qarşı şantaj siyasətini gücləndirir - təhlükə

## Sterliqov və xanımının Qarabağdakı hoqqalarına, rusiyalı sənətçi və media mənsublarının işğal altındakı ərazilərə adiləşən səfərlərinə rəsmi Moskvanın seyrçi reaksiyası, Qarabağ ermənilərinə Rusiya "QAİ"sinin verdiyi qanunsuz vəsiqələr aysberqin yalnız görünən tərəfləridir...

**Dağlıq Qarabağ məsələsində üç vasitəçidən biri olaraq, ədalətli mövqe tutmaması azmış kimi, Rusiya son vaxtlar ölkəmizə qarşı gizli-açıq şəkildə təxribatçı hərəkətlərini də artırıb. Söhbət ən əvvəl avantürist iş adamı, işğal altındakı torpaqlarımızda macəra axtaran və vəkili erməni olan German Sterliqovdan və onunla eyni ağılda olan arvadı, modabaz və ədabaz Alyonadan gedir - hansılara qarşı ki, Azərbaycanda tam haqlı və qanuni olaraq, cinayət işi açılıb.**

Azərbaycana bu çağırılmamış qonaqların ölkəmiz əleyhinə təxribatçı əməlləri və verdikləri açıqlamalar həm də ona görə xüsusi diqqət çəkir ki, Ermənistanla yanaşı, Rusiyanın da rəsmi və qeyri-rəsmi KİV-lərində onların əməlləri geniş təbliğ olunur, ölkəmizin ərazi bütövlüyü və suverenliyi şübhə altına qoyulur.

Sterliqovun özü isə dünən Moskva aeroportunda saxlanılsa da, Rusiya onun Azərbaycana təhvil verilməsində maraqlı deyil, çünki onun vasitəsilə Bakıya qarşı faktiki, yeni bir təhdid və şantaj vasitəsi tapıb.

Azərbaycan əleyhinə bu qəbildən başqa təhdid üsulu isə vaxtaşırı tanınmış rusiyalı sənət adamları və ictimai-siyasi xadimlərin, media mənsublarının separatçı bölgəyə səfər etməsinə Kremlin israrla göz yummasıdır. Elə dünən bəlli olub ki, tanınmış müğənni Lyubov Kazarnovskaya və digərlərinin iştirakı ilə Xankəndi şəhərində sentyabrın 2-də təxribatçı məqsəd daşıyan konsert proqramı təşkil ediləcək. Üstəlik, Kazarnovskaya özü ilə bərabər, iki italyan sənətçini - Canluko Marçiano və vokalist Nikola Uliveri də separatçı regiona getməyə razı salıb.

**Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı artıq sərt mövqeyini bildirib və təxribatçı məqsəd daşıyan konsert proqramının təşkilini qəti şəkildə qınayıb.** Sitat: "Bu konsert proqramı Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalı, qanlı etnik təmizləmə siyasətinin nəticəsi olaraq yaradılmış qondarma rejimin təşviqinə xidmət edir. Ədalət və sülhdən danışan Kazarnovkayaya xatırlatmaq istərdik ki, konsertin keçiriləcəyi Xankəndi şəhərindən bir neçə kilometr aralıda yerləşən Xocalı şəhərində Ermənistan və qondarma rejim tərəfindən 1992-ci ildə yerli azərbaycanlı əhaliyə qarşı bəşəriyyətin ən dəhşətli insanlıq əleyhinə cinayəti və soyqırımı törədilib. Özünü mədəniyyət xadimi adlandıran şəxslər heç olmasa, bu faciənin qurbanı olmuş azyaşlılardan və qadınlardan utanmalı və vicdan əzabı çəkməlidirlər. Ermənistanın vandalizm siyasətinin nəticəsidir ki, işğal olunmuş ərazilərdə Azərbaycan xalqının zəngin maddi-mədəniyyət abidələri, o cümlədən dünyada məşhur olan Qarabağ musiqi irsi talan və məhv edilib".

Hikmət Hacıyev əlavə edib ki, konsert proqramında iştirak edən digər əcnəbi vətəndaşların adları da müvafiq araşdırmadan sonra arzu olunmaz şəxslər siyahısına daxil ediləcək.

*****

Ancaq qəribədir ki, Rusiya XİN-i indiyədək bircə dəfə də olsun, öz vətəndaşlarını separatçı bölgələrimizə qanunsuz səfərlər etməkdən çəkindirməyə çağırmayıb. Hələ harasıdır, bu arada məlum olub ki, Rusiyanın Dövlət Avtomobil Müfəttişliyi İdarəsi Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ bölgəsində doğulmuş Petrosyan Arşak Valeriviç adlı şəxsə sürücülük vəsiqəsi verib (avropa.info).




Sürücülük vəsiqəsində Dağlıq Qarabağ ayrıca "respublika" kimi göstərilib. Belə ki, 1985-ci il təvəllüdlü Arşak Petrosyan Valeriviçin doğulduğu yer "Dağlıq Qarabağ Respublikası" kimi qeyd edilib (bax foro).

Yada salaq ki, ötən il başqa bir analoji faktı Azərbaycan mediası tapıb üzə çıxarmış, lakin Rusiya tərəfdən rəsmi mövqe öyrənməyə müvəffəq olmamışdı. İndi tutaq ki, rusiyalı incəsənət və iş adamları müstəqil şəxslərdir və onların hərəkətlərinə dövlət cavabdehlik daşımır. Bəs Rusiyanın Dövlət Avtomobil Müfəttişliyi İdarəsi necə olsun, o ki dövlət qurumudur?

Və ya nədən Rusiya XİN bircə dəfə də olsun öz vətəndaşlarını işğal altındakı torpaqlara qanunsuz səfərlərdən çəkindirməyib - necə ki, bunu Ukrayna və digər normal dövlətlər vaxtaşırı edir? Moskva ərazi bütövlüyümüzü tanımırmı?

Sadalanan faktlar, üstəgəl, son vaxtlar Azərbaycanda rusiyayönlü "5-ci kolonçu"ların fəallaşaraq "Avrasiya hərəkatı" adlı təxribatçı qurum yaratmaq cəhdləri bir daha sübut edir ki, Moskva Bakıya qarşı şantaj siyasətini gücləndirib və bu yöndə təxribatçı əməlləri durdurmağa hazırlaşmır.

Bəzi analitiklərə görə, Rusiya xarici işlər naziri Sergey Lavrovun bu gün Bakıya başlayan səfəri də əslində eyni siyasətə xidmət edir.

❑ **Siyasət şöbəsi**

# Həsən Ruhani Azərbaycan-İran əlaqələrindən danışdı


Həsən Ruhani

## Rəsmi Bakı İrana qarşı embarqoların götürülməsindən sonra bu ölkə ilə əməkdaşlığı dərinləşdirməyə çalışır; söhbət böyük mənfəətlərdən gedir

**İran prezidenti Həsən Ruhani Azərbaycanla münasibətlərdən danışıb. APA-nın xarici mediaya istinadən verdiyi məlumata görə, Dövlət Həftəsi münasibətilə keçirilən mətbuat konfransında çıxışı zamanı H.Ruhani deyib ki, iki ölkə arasında münasibətlərin inkişafı üçün yaxşı şərait var.**

**Həsən Ruhani** bildirib ki, münasibətlərin inkişafı Xəzər dənizində təhlükəsizliyə və Qarabağ probleminin həllinə yardım edir. H. Ruhani nüvə anlaşmasından əvvəl Xəzəryanı ölkələrlə münasibətləri genişləndirdiklərini və demək olar ki, bütün Xəzəryanı ölkələri ziyarət etdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, İranla Azərbaycan arasında münasibətlər son illərdə xeyli dərəcədə yaxşılaşıb. İki ölkə arasında münasibətlər 2000-ci illərin ortalarında soyuqlaşıb. Əhmədinejadın prezidentliyi dönəmində Qərbə qarşı radikal siyasi kurs götürən İran bölgədə Qərblə yaxın müttəfiq olan Azərbaycana qarşı sərt münasibət göstərib. İran-Azərbaycan münasibətlərində soyuqluq üzə çıxan gizli diplomatik yazışmalarda da yer almışdı. Ancaq 2013-cü ildə prezident seçilən Həsən Ruhani Qərb ölkələri ilə yanaşı, Azərbaycanla münasibətləri istiləşdirmək yönündə addımlar atdı. Azərbaycan və İran prezidentlərinin qarşılıqlı rəsmi səfərləri oldu, eləcə də hər iki ölkənin rəsmi şəxslərinin qarşılıqlı səfərlərinin sayı artdı. Hazırda iki ölkə münasibətlərində ciddi sual yaradacaq hansısa məqam yoxdur.

Əksinə, Azərbaycan iş adamları hazırda İranın bir neçə Azad İqtisadi Zonasına yatırım qoyub. Hələlik İrana yatırım qoyan Azərbaycan şirkətlərinin adları bəlli olmasa da, səfirlik faktın özünü təsdiqləyib. Yeri gəlmişkən, İran prezidentinin açıqlaması ilə eyni vaxtda İslam Respublikasının nüfuzlu din xadimi, siyasi dairələrdə böyük nüfuza malik islam alimi, müctəhid Ayətullah Nuri Həmədani Bakıya səfərə gəldi. Bu, müstəqillik illərindən bu yana Azərbaycana bu səviyyədə müsəlman din xadiminin səfəridir. Səfərin təşkilatçısı QMİ olsa da, aydın məsələdir ki, rəsmi Bakı Həmədaninin səfərinə razılıq verib.

Avropa mediasının araşdırmalarına görə, ümumilikdə İranın beynəlxalq embarqolardan xilas olub yenidən dünya bazarına qayıtması İslam Respublikasının özü ilə yanaşı, həmçinin İranın enerji məhsullarının Avropa bazarına çıxarılması, tranzit ölkə rolunu oynaya biləcək Türkiyə və Azərbaycan üçün böyük qazanc vəd edir. Belə ki, İrana qarşı sanksiyaların götürülməsi İran kimi böyük bir bazarı Qərb ölkələrinin şirkətlərinin üzünə açmaqla yanaşı, qonşu ölkələrə də böyük gəlir vəd edir. Mütəxəssislərə görə, qarşıdakı iki il ərzində İrana sərmayə qoyuluşu iki dəfə arta bilər. Bundan başqa, ekspertlərə görə, sanksiyaların ləğvi ilə İranın xarici ticarət dövriyyəsi 250 milyard dollara qədər arta bilər.

İranın dünya bazarına qayıtmasından ən böyük fayda götürəcək ölkələrdən biri də Türkiyə olacaq. Türkiyə mətbuatının yazdığına görə, İranın qarşıdakı illərdə artan xarici ticarətinin 10 faizlik payı, yəni 25 milyard dolları Türkiyəyə düşəcək. Hazırda iki ölkə arasında ticarət dövriyyəsinin 16 milyard dollar olduğu və qarşıdakı dövrdə bu rəqəmin 45 milyarda çatması gözlənilir. Ekspertlərə görə, embarqoların götürülməsi ilə Türkiyə İranla qızıl, neft, qaz ticarətini böyüdəcək. Həmçinin Türkiyə İranın artan ixracatı səbəbindən tranzit haqlarından böyük gəlir əldə edəcək.

Bir sıra ekspertlərə görə, İranın dünya bazarına qayıtmasından faydalanacaq daha bir ölkə Azərbaycandır. Azərbaycan İranın əsas ticarət və sənaye partnyoru olan Rusiya arasında keçid ölkə funksiyasına sahibdir. Üstəlik, Tehran TANAP və TAP kimi boru kəmərlərinə maraq göstərir. Sanksiyaların götürülməsi ilə İranın dünya bazarına çıxacaq məhsullarının çıxacağı ikinci əsas istiqamətlərdən biri də Azərbaycan üzərindən keçir.

Təbii ki, bu imkanları Azərbaycanda da yaxşı bilirlər və yaranmış fürsəti dəyərləndirməyə çalışırlar. Bu səbəbdən də anlaşmadan sonra Azərbaycan iqtisadiyyat və sənaye nazirinin rəhbərlik etdiyi heyət İrana səfər edərək yüksək səviyyədə görüşlər keçirdi. İran rəsmilərinin də açıqlamalarından belə məlum olur ki, iki ölkə arasında maşınqayırmadan, enerji, yük daşımaçılığına qədər müxtəlif istiqamətlərdə əməkdaşlıq imkanları müzakirə olunur. Bəzi sahələrdə artıq razılaşmalar da var. İran rəsmilərinin açıqlamalarından da görünən odur ki, Tehran özü də Azərbaycanla əməkdaşlıqda, münasibətləri yüksək səviyyədə saxlamaqda maraqlıdır.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015




# Prezidentdən mühüm fərman

## Azərbaycanda 1 gün ərzində vətəndaşlara yaşayış yeri üzrə arayış veriləcək; "ASAN xidmət" mərkəzlərində taksi sürücüləri "Fərqlənmə nişanı"nı ala biləcək

**Prezident İlham Əliyev "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" fərman verib. APA-nın məlumatına görə, fərmana əsasən yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsi üçün arayışın "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin (İAMAS) və digər informasiya sistemlərinin məlumatlarından istifadə edilməklə, elektron qaydada tərtib edilməsi, arayışın vətəndaşların şəxsiyyət vəsiqəsi əsasında və əlavə heç bir sənəd tələb edilmədən hazırlanması və arayışın vətəndaşın müraciət etdiyi gün təxirə salınmadan verilməsi təmin edilməlidir.**

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin elektron qaydada verilməsini təmin etmək məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Elektron lisenziya" portalının yaradılmasını təmin etməlidir. "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsi, şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması, taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi, taksi minik avtomobilləri ilə sərnişin daşınmasını həyata keçirən sadələşdirilmiş vergi ödəyicilərinə məxsus nəqliyyat vasitəsinə "Fərqlənmə nişanı"nın verilməsi təmin edilməlidir.

Fərmana əsasən Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi səyyar xidmətdən daxil olan vəsaitin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə və maddi təminatının yaxşılaşdırılmasına yönəldilən hissəsini müəyyən etmək, mərkəzlərdə xüsusi notariusların fəaliyyətinin təşkili ilə bağlı müqavilələr bağlamaq və xüsusi notariuslar tərəfindən tutulan haqların Dövlət Agentliyinin xüsusi hesabına köçürülən hissəsini müəyyən etmək səlahiyyətləri də verilib. Dövlət Agentliyinin dövlət orqanlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə arayışlar, hesabatlar hazırlamaq da əlavə edilib.

Daxili İşlər Nazirliyi bir ay müddətində yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın formasını müəyyən etməli, bununla bağlı xidmətin "ASAN xidmət" mərkəzlərində və nazirliyin qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarında həyata keçirilməsini təmin etməlidir. Dövlət Miqrasiya Xidməti şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğulara baxılması zamanı yaşayış yeri üzrə qeydiyyata dair məlumatların və digər zəruri informasiyanın elektron qaydada mübadiləsini Daxili İşlər Nazirliyi ilə birlikdə təmin etməlidir. Nəqliyyat Nazirliyi isə taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi və taksi minik avtomobillərinə "Fərqlənmə nişanı"nın verilməsi xidmətlərinin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsini təmin etməli, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi taksi minik avtomobillərinin xarici tərtibatına və texniki göstəricilərinə dair tələblərin sadələşdirilməsi üçün müvafiq tədbirlər görməlidir.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi dövlət xidmətlərinin həyata keçirilməsi üçün zəruri olan informasiya sistemləri və ehtiyatlarının saxlanmasını və məlumatların şəxsin fərdi identifikasiya nömrəsi əsasında mübadiləsini həyata keçirən müvafiq infrastrukturun yaradılması ilə bağlı tədbirlər görməli, dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi qaydaları, elektron xidmətlərin təşkili və göstərilməsi üçün zəruri informasiya mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Prezident Administrasiyası taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi məqsədi ilə normativ hüquqi aktlarda dəyişikliklər edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb prezidentə təqdim etməlidir.

# 2016-cı ilin dövlət büdcəsi 6 milyard azaldılacaq?

## Əli Məsimli: "Neftin qiymətinin kəskin ucuzlaşması bir sıra dəyişikliklərin edilməsini, büdcə gəlir və xərclərinin azaldılmasını labüd edib"

**Dünya bazarında neftin qiymətində müəyyən qədər bahalaşma qeydə alınsa da, bu, dövlət büdcəsində "qara qızıl"ın qiymətini 90 dollardan götürən Azərbaycan üçün heç də ürəkaçan göstərici deyil.**
**Bu ərəfədə bir sıra ekspertlər xərclərin azaldılması üçün ölkənin xüsusən dövlət sektorunda ixtisarların olacağını, bir sıra qurumların birləşdiriləcəyini proqnozlaşdırır. Eyni zamanda 2016-cı ilin dövlət büdcəsinin kəskin şəkildə azaldılacağı barədə məlumatlar var.**

2015-ci il dövlət büdcəsinin gəlirləri 19 438 000,0 min manat, xərcləri 21 100 000,0 min manat nəzərdə tutulmuşdu. Ancaq devalvasiya və neftin ucuzlaşması səbəbindən büdcədə böyük miqdarda kəsir yarandı, ehtiyatlarımız azaldı. Bəzi mütəxəssislər isə ilin sonuna qədər Azərbaycanın daha 5 milyard manat kəsirlə üzləşəcəyini iddia edir. Məlumat var ki, Azərbaycanın gələn il üçün dövlət büdcəsi 6 milyard azaldılacaq. Bununla bağlı hökumətin üst düzeyində müzakirələrin aparıldığı barədə xəbərlər var. Milli Məclisə göndəriləcək büdcə layihəsində xərclərin təqribən 16 milyard miqdarında nəzərdə tutulacağı deyilir. Hesab edilir ki, daha çox infrastruktur layihələrə, təmir-tikinti işlərinə ayrılan sahələrə vəsaitin qoyuluşu məhdudlaşdırılacaq.

**Deputat Əli Məsimli** bu barədə "Yeni Müsavat"a bildirdi ki, hələlik bu barədə konkret rəqəm söyləmək mümkün deyil: "Gələn ilin büdcə proqnozları Milli Məclisə daxıl olmadığından, yeni büdcənin əsas parametrləri barədə bizdə hələlik konkret məlumatlar yoxdur. Amma dünya bazarında neftin qiymətinin kəskin surətdə aşağı düşməsi 2016-cı ilin büdcəsində bir sıra dəyişikliklərin edilməsini və büdcə gəlir və xərclərinin azaldılmasını labüd edib. Bunun konkret miqyası yaxın vaxtlarda məlum olacaq. İlk növbədə gələn ilin büdcə proqnozlarında neftin qiyməti builki kimi 90 dollar deyil, təqribən iki dəfə aşağı götürülməli olacaq. Yəqin ki, son illərdə həmişə olduğu kimi, bu il də Maliyyə Nazirliyi 2016-cı ilin dövlət büdcəsinin çoxvariantli ssenarilərini hazırlayacaq və vəziyyətdən asılı olaraq müəyyən korrektələr edəcək". **Ə.Məsimli qeyd etdi ki, böyük ehtimalla gələn ilin büdcəsində Neft Fondundan transfertlər azaldılacaq:** "Digər tərəfdən, neftin qiymətinin kəskin surətdə aşağı düşdüyü bir şəraitdə gəlirlərinin azı 65 faizi neft amili ilə bağlı olan və onun da 53 faizindən çoxu birbaşa Neft Fondundan transfertlər təşkil edən büdcənin 2016-cı ildə azaldılması ilə yanaşı, həm gəlir, həm də xərc maddələrinə yenidən baxılması və müvafiq korrektələrin edilməsi labüddür". **Büdcənin xərclər hissəsinə gəldikdə isə, deputat bunları söylədi:** "Birincisi, Azərbaycanın dövlət büdcəsi xərclərinin yarıya qədəri əsaslı xərclərə yönəldilir. Əsaslı xərclər ölkədə həyata keçirilən sosial və infrastruktur layihələrin, əsas vəsait, qurğu və avadanlıqların, xüsusi dövlət alışlarının və digər əsaslı ödənişlərin maliyyələşdirilməsinə sərf edilir. Bu sahədə büdcə vəsaitindən istifadənin səmərəliliyini artırmaqla, az vəsaitlə əvvəlkindən də çox işlərin görülməsi siyasətinə keçmək olar. İkincisi, büdcənin cari xərcləri əsasən büdcə təşkilatlarında çalışanların əmək haqqını, təqaüdlər və sosial müavinətləri, kommunal və kommunikasiya, abadlaşdırma xidmətləri haqqının ödənilməsini və digər zəruri xərcləri əhatə etdiyindən burda hökumət öz sosial öhdəliklərinin 2016-cı ildə də yetərincə yerinə yetirməkdən ötrü sosial xərclər ixtisar edilməyəcək. Buraya aid edilən abadlaşdırma və sair bu kimi işlərə xərclər bir qədər ixtisar oluna bilər. Üçüncüsü, Maliyyə Nazirliyi bir sıra xərc maddələri üzrə lüzumsuz xərcləri də azalda biləcək". **Ə.Məsimliyə görə, obyektiv təhlillər aparılsa, görünər ki, bu sahədə də qənaət edilməsi zəruri olan xərclər yetərincədir:** "Əgər nəzərə alsaq ki, bu il Neft Fonduna daxilolmalar 2014-cü illə müqayisədə təqribən 2 dəfə az, yəni ən yaxşı halda 8 milyard dolların ətrafında olacaq, onda hökumət dövlət büdcəsinin gəlirlərində neftdənkənar sahələrin rolunun artırılması, xərclər sahəsində isə büdcə vəsaitindən istifadənin səmərəliliyinin artırılması istiqamətində səy göstərəcək".


Əli Məsimli

❑ **Cavid TURAN**

# Xədicə İsmayıl məhkəmədə son söz dedi

## Jurnalistin sözü yarımçıq dayandırıldı; hökm oxunması qeyri-müəyyən vaxta təxirə salındı

**Avqustun 31-də Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırmaçı jurnalist Xədicə İsmayılın son məhkəmə prosesi keçirildi. Müsavat başqanı Arif Hacılı da daxil, vətəndaş cəmiyyətinin üzvləri, xarici ölkə təşkilatları və səfirliklərinin nümayəndələri məhkəmədə iştirak edirdilər.**

Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən məhkəmədə X.İsmayıl son söz dedi: "Saxtakarlığın ən ucuz variantlarından istifadə edərək mənə qarşı tikilən iş elə özü-özünün ifşası idi. Odur ki, vəkillərimin dediklərindən əlavə, bu məsələləri uzun-uzadı təsvir etməyəcəyəm. Onsuz da vergi müfəttişləri suallara cavab verərkən çox faktlar üzə çıxdı...

125-ci maddə barədə çox danışmayacağam. Ölkəni kasıblıq, kredit borcu, polis zorakılığı ucbatından intihar dalğası bürüdüyünü yazan və deyən tək mən deyildim. Şəxsi həyatıma burunlarını soxdular, sınmadım, şantaj etdilər, əyilmədim. İndi 15 il, lap 25 il həbslə də sınan deyiləm. Məni Elmar Hüseynov, Rafiq Tağı, yaxud Rasim Əliyevi susdurduqları kimi də susdura bilərdilər. Amma mən işimi ehtiyatlı tutmuşdum. Heç vaxt tək olmurdum. Buna görə Tural Mustafayevlə və istənilən başqa adamla münasibətlərimizin şahidləri çoxdur. Prokuror məhkəmədə tədqiq olunmayan SMS və facebook mesajlarına istinad etdi. Bəs həmin SMS və mesajlar ittihama yardımçı olacaqdısa, onları niyə məhkəmədə oxutmadılar, tədqiq etmədilər? Çünki tədqiq etsəydilər, Mustafayevin onlara bu səhifələri təqdim etmədiyi, bir hissəsinin kontekstdən çıxarıldığı, bir hissəsininsə uydurulduğu üzə çıxacaqdı. O da məlum olacaqdı ki, istintaqın iddia etdiyi kimi, Meydan TV-dən Tural Mustafayevi çıxarmayıblar. İşdən çıxmaq üçün ərizəni o özü 28 fevral 2014-cü ildə verib. Yəni prokurorluğun iddia etdiyi kimi, münasibətlərimizin kəsilməsindən sonra deyil, 9 martdan 12 gün əvvəl.

Dostlarım məni gözləyən həbs, həbsxana çətinlikləri barədə nə düşündüyümü soruşurlar. "Çətin deyil ki?" - deyə soruşurlar. Mübarizəyə köklənən adamlar çətinlikləri hiss etmirlər. Nazim Hikmət dediyi kimi: "Düşməsin bizimlə yola evində ağlayanların göz yaşlarını boynunda ağır bir zəncir kimi daşıyanlar".

Mən burda yaxşı kampaniyadayam. Leyla xanımla, İntiqam bəylə, Anar Məmmədli, İlqar Məmmədov, Tofiq Yaqublu, Rəşadət Axundov, İlkin Rüstəmzadə, inancları və prinsipləri uğrunda həbs yatan dindarlar, hüquq müdafiəçiləri və jurnalistlərlə bir taleyi bölüşürəmsə, nə xoş mənə. Məndən nigaran olmayın.

Sonda istərdim işimizi yarımçıq qoymayan həmkarlarımıza, repressiyalara etiraz edən fəallara, beynəlxalq hüquq müdafiə qurumlarına, səfirlik əməkdaşlarına təşəkkürümü bildirim ki, dəstəklərini və diqqətlərini əskiltmirlər. Vəkillərim sağ olsunlar ki, bu aylar ərzində həm mənə, həm də mənə həbsxanada müraciət edən köməksiz insanlara təmənnasız yardımlarını əsirgəməyiblər.

Və nəhayət, Ramella xanım, sifariş verilən hökmü oxuduqdan sonra sizə də xoş istirahətlər arzulayıram. O gün olsun istirahətinizi vicdanınız ağrımadan, vicdanınızı susdurmadan keçirə biləsiniz. Ümid edirəm, imza atdığınız pisliklərin bumeranq effekti sizdən və yaxınlarınızdan yan keçər. Hərçənd enerjinin itməməsi qanunu bu ümidlərimə çox da yer qoymur"...

**Təqsirləndirilən şəxsin çıxışının bu yerində hakimlər qəflətən çıxışı yarımçıq kəsərək, qərar qəbul etmək üçün müşavirəyə yolandılar. Sonda məlum oldu ki, hökmün elan olunması qeyri-müəyyən vaxta təxirə salınıb.**


Xədicə İsmayıl

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015

# Dünyanı silkələyən jurnalist qətlinin pərdəarxası

## Qatil 23 səhifəlik etiraf faksında yazıb ki, gələcək qurbanlarını təqib edirmiş və bunun səbəbi varmış...

**Son günlər dünya miqyasında baş verən ən səs-küylü qətl heç şübhəsiz ki, Amerikanın Virciniya ştatında canlı yayım zamanı jurnalist və fotomüxbirin öldürülməsi idi. Xatırladaq ki, hadisə canlı yayım zamanı baş verib. Belə ki, 24 yaşlı jurnalist Alison Parker və 27 yaşlı fotoqraf Adam Vardı "Bridgewater Plaza"da müsahibə alırmış. Bir anda silah səsləri eşidilib. Bundan sonra jurnalist qışqırmağa başlayır və görüntülərdən də bəlli olur ki, operator yerə yıxılır. Daha sonra yayım kəsilir. Kadrlarda 8 dəfə atəş açıldığı eşidilir.**

Amma hələ də bu vəhşi qətlin səbəb və motivləri çoxlarına aydın deyil. Keçmiş iş yoldaşı.... niyə, hansı səbəbdən bu qədər vəhşi bir qətli törətsin ki? Həm qətli həyata keçirib, həm də bunu canlı-canlı çəkib, sosial şəbəkədə yerləşdirmə kimi bir hərəkətin arxasında hansı gerçəklər dayanır?

**Qaradərili qatil kimi müdafiə edib?**

"WDBJ7" telekanalının iki jurnalistini öldürməkdə şübhəli bilinən, onların keçmiş həmkarı 41 yaşlı Vester Li Flenaqan "ABC News" telekanalına faks göndərərək öz hərəkətinin motivlərini açıqlayıb. Jurnalistlərin öldürülməsindən sonra kanalın redaksiyasına Brays Uilyams imzalı faks gəlib. Flenaqan WDBJ7 telekanalında işlədiyi vaxt məhz bu təxəllüsdən istifadə edib. Faksın müəllifi qeyd edib ki, onun bu hərəkəti Çarlstonda qaradərili şəxslər üçün kilsədə törədilən hadisəyə cavabdır. Qeyd edək ki, 17 iyunda 21 yaşlı ağdərili irqçi Dilan Ruf kilsəyə daxil olub və oradakı şəxslərə atəş açıb. İnsident nəticəsində 6 qadın və 3 kişi həlak olmuşdu. Hadisə şahidlərinin sözlərinə görə, kilsədə atəş açan bu sözləri deyib: "Mən bunu etməliyəm. Siz bizim qadınlarımıza təcavüz edir və ölkəmizi əlimizdən alırsınız. Siz ölməlisiniz".

Bundan əlavə, Flenaqan məktubunda 2007-ci ilin aprelində Virciniya Politexnik İnstitutunda 32 nəfəri öldürən cənubi koreyalı Ço Sın Hi və 1999-cu ildə məktəbdə 13 nəfəri öldürən yeniyetməyə heyran olduğunu bildirib. Flenaqan həmçinin iş yerində irqi diskriminasiya, seksual təcavüz və s. kimi hallardan da şikayət edib. Onun fikrincə, o gey və qaradərili olduğu üçün ələ salınıb.

"Müəyyən müddət mən partlamağa hazır olan barıt çəlləyi idim" deyə, "ABC News" faksdan olan sitatı təqdim edir. Faks tam olaraq ictimaiyyətə təqdim olunmayıb. Telekanal qatilin məktubunu hüquq-mühafizə orqanlarına göndərib.

**Gələcək qurbanlarını təqib edib, canlı yayım yerinə gəlib**

Flenaqanın öldürülən sabiq həmkarları ilə şəxsi problemləri olub. Törətdiyi qətllərdən sonra twitterdə yazdığı postlarda o iddia edib ki, 24 yaşlı Elison Parker irqçi çıxışlar edib, cəmi bir dəfə əməkdaşlıq etdiyi Adam Uord isə Fleneqandan kadrlar şöbəsinə şikayət edib.

Daha əvvəl yayılan məlumatlarda isə qeyd olunub ki, Fleneqanın karyerası son illər heç də uğurlu alınmayıb. Floridanın "WTWC" telekanalından işdən çıxarıldıqdan sonra o, məhkəməyə müraciət edərək sabiq iş yerində irqçilik zəminində təhqirlərə məruz qaldığını bildirib.

Vesti.ru saytının apardığı araşdırmalarda isə bu qətlin arxasında daha ilginc məqamların yer aldığı qeyd olunub. Belə ki, qatil 23 səhifəlik etiraf faksında da yazıb ki, gələcək qurbanlarını təqib edirmiş. Verilişin canlı olduğunu da bilirmiş və saat 6.45-də canlı yayımda güllə səsləri eşidilib. Televiziya jurnalisti kimi 41 yaşlı Vester Fleneqen keçmiş həmkarlarından bir addım aralıda dayanaraq, böyük səbirlə "növbəsini" gözləyib. Operatorun panorama çəkilişlərini bitirib, kameranı reportyor və onun həmsöhbətinə tərəf çevirəcəyi anına qədər səbrini basıb. Açıq-aydın güllələnmə anının kameranın yaddaşına və milyonların beyninə həkk olunmasını istəyib.

Amma bu da ona azlıq edib. Ona həm də bu kadra internetdə milyonların baxması da lazım idi. Ona görə də bir əlində "Glock" silahı, o biri əlində isə smartfon olub. Yəni təkcə qətli törətməyib. Eyni zamanda bu qətl anını, qurbanlarının əzabını çəkib, sosial şəbəkədə paylaşmaq əsas məqsədi olub.

**"WDBJ" kanalının baş meneceri Cefri Marks isə deyir ki, keçmiş əməkdaşının belə vəhşi bir plan quracağını heç vaxt təxmin edə bilməzdi:** "Mübahisə etməyi sevən insanla əlinə silah götürüb iki nəfəri qətlə yetirən arasında ciddi fərq var. Xüsusən də işdən azad olunandan 2 il sonra. Ona görə də əməkdaşlarımızdan kiminsə başına belə bir iş gələcəyini təxmin etmək mümkün deyildi".

Amma bununla yanaşı, bu adamın hər şeyə qadir olması ilə bağlı kanal əməkdaşlarında təəssürat yaranmışdı. Belə ki, iki il əvvəl onu böyük bir qalmaqalla işdən uzaqlaşdıranda hadisəyə polis də qarışmışdı. Fleneqen hamı ilə konfliktə girirdi, şikayət yazırdı. Şikayətlərində isə iddia edirdi ki, dərisinin rənginə və qeyri-ənənəvi cinsi oriyentasiyasına görə işdə mənəvi terrora məruz qalır.

**Cin Cedxot isə kanalda 20 ildən artıqdır ki, çalışır. Fleniqeni iş vaxtı, kadr arxasında görüb və ondan gələn təhlükəni duyub:** "Mən bu hadisə barədə eşidəndə heç təəccüblənmədim. Çünki onun necə qəddar adam olduğunu və bizim telekompaniyaya necə nifrət etdiyini bilirdim. Bəs belə situasiyadan özümüzü necə qoruyaq?"

**Əvvəl özünü öldürmək istəməyib**

Maraqlıdır ki, keçmiş həmkarlarını qətlə yetirən Fleniqenin başlanğıcda özünü öldürmək fikri olmayıb. Çünki onun maşınında silahdan başqa, tünd eynək, parik, yeni telefon və 3 avtomobil nömrəsi aşkarlanıb. Yəni onun gizlənmək, qaçmaq kimi planı olub. Amma polislər onu əhatəyə aldığı zaman silahı özünə tərəf çevirib və intihar edib.

Məlum olub ki, qatil üçün 2 il boyunca qurbanlarını izləmək elə də çətin məsələ olmayıb. İşdən azad edilsə də, Fleniqen həmin şəhərdə yaşamağa davam edib. Onun evindən redaksiyaya qədər olan məsafə olduqca kiçik olub. Qatil özü olduqca qarışıq, sahmansız həyat tərzi keçirib. Kompüterinin qabağında plastik bir stulu və depressiv durumda kompüterdə baş verənləri izləməsi... Onun dostları və yaxınları ilə heç bir dənə də şəkli olmayıb. Evində axtarış aparılan zaman iki fotosu tapılıb. Biri model agentliyində, o biri də kostyumda, mikrofon qarşısında çəkdirdiyi.

Bundan başqa, əməliyyatçılar qatilin evində LGBT-nin *(qeyri ənənəvi cinsi orientasiyaya sahib olan şəxsləri birləşdirən təşkilat)* bayrağı və seksual oyuncaqlar tapılıb. Hər yerdə pişik izi olsa da, bu izlərin təmizlənmədiyi, ümumiyyətlə, evin sahmana salınmadığı müşahidə olunub. Heyvanların özünü tapmaq mümkün olmayıb. Araşdırmalar zamanı üzə çıxıb ki, Fleninqen həmkarlarını qətlə yetirməyə getməzdən əvvəl pişiklərini də öldürüb.




Qətlə yetirilən operator Adam Uordun 27 yaşı olub. Qısa müddət bundan öncə telekanalın prodüseri olan Meliss Otta evlənmə təklifi edibmiş. İşdən çıxmağa hazırlaşırdı, çünki cütlük şəhərdən köçməyi planlaşdırırdı. Qətl günü Melissin axırıncı iş günü imiş. Səhər saat 6.45-də o, aparat otağında olub və nişanlısının necə qətlə yetirildiyini canlı yayımdan görüb.

24 yaşlı Elisson Parker üçün də "WDBJ" studiyasında müxbir olmaq həyatındakı bir ilk imiş. O, özünü peşəsinə həsr edib, CNN və yerli kanal üçün reportajlar hazırlayırmış. Baş vermiş dəhşətli qətldən sonra "WDBJ" kanalının ilk efir gününə yardım etmək üçün dost və rəqib kanalların əməkdaşları gəliblər. Onlar bildiriblər ki, belə bir gərgin gün keçirən həmkarları canlı yayımın öhdəsindən gələ bilməyəcəklər, onlar üçün ağır olacaq.

Daha bir məqam isə odur ki, qatil güllələrin üstünə qurbanlarının adını yazıbmış. Amerikan psixoloqlar hesab edir ki, ölkədəki siyasətçilərin silah satışına qadağa qoyulması ilə bağlı çağırışlarının heç bir əhəmiyyəti yoxdur. Çünki bu, silah satışı ilə yox, psixoloji problemlərlə bağlı olan bir nəticədir.

Amerika bu günə qədər bu və buna bənzər qətlləri çox görüb. Amma ölkə qorxur ki, Vester Flenegenanın tərəfdarları da tapıla bilər.

❑ **Sevinc TELMANQIZI**

# Xoruzdöyüşdürmə yarışından canlı reportaj da olsa...



**Samir SARI**

**Dünən işə gələndə eşitdim. Milli radiolarımızdan birinin aparıcısı dinləyicilərə belə bir sual ünvanlamışdı: "Nədən yorulursunuz?" Radio dinləyiciləri ya studiyaya zəng edir, ya da verilən telefon nömrələrinə SMS yazaraq nədən yorulduqlarını bildirirdilər.**

Çox orijinal, unikal cavablar vardı, biri də beləydi: "Öz televiziyalarımızın toyxana verilişlərindən yorulmuşuq".

Aparıcı da dərhal o mesaja öz əlavəsini etdi: "Toyxana verilişlərdən yorulan təkcə siz deyilsiniz".

Bununla da o, işarə verdi ki, o cür verilişlərdən hamı yorulub və bunu artıq dilə gətirib danışanlar çoxdur.

Gerçəkdən də istər sosial şəbəkədə, istər peşəkar mediada, istərsə də camaat arasında o cür bayağı, şit, yüngül verilişlərdən dad-həzər eləyənlər çoxdur. Əvvəllər bu işə "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov baxırdı, telekanallarımızın səfeh verilişlərinin monitorinqini aparır, silsilə yazılar yazırdı.

Son vaxtlar onun da başı seçkiyə qarışıb-nədi, əttökən, beyin cırmaqlayan televiziya verilişləri barədə yazılar yazmır. Deyilənə görə, o cür verilişlərin sayı artıb.

Ona görə "deyilənə görə" deyirəm ki, əsəblərinin qədrini bilən minlərlə başqaları kimi mən də o cür verilişlərlə bağlı problemi çoxdan həll etmişəm: baxmıram, görmürəm, hiddətlənmirəm.

Hərçənd çay süzmək üçün redaksiyanın mətbəxinə gedəndə orda mütləq "nay-na-nanay" qrafasına girən verilişlərin üstünə çıxıram - həm də günün müxtəlif vaxtlarında. Baxırsan, yekə-yekə, 120 kiloluq, bığlı-saqqallı kişilər, o boyda xalalar, bibilər düşüblər ortalığa, hansısa bir diringinin sədaları altında qol götürüb oynayırlar.

Amma zövqlər müxtəlifdir, nə deyəsən. Tərs kimi, mətbəxdəki televizorumuzun anteni qoşbuynuz ev antenlərindəndir, Azərbaycan telekanallarından başqa heç yeri tutmur, ona görə də variant yoxdur.

Bu cür verilişlərdən gileylənənlərin isə, güman ki, seçim variantları var, baxmaya bilərlər. Bassınlar pultdakı ixtiyari bir rəqəmi, çevirsinlər başqa yerə, 500 kanalın içində nəsə maraqlı bir şey çıxacaq, oturub baxsınlar.

Görürsünüz ki, bu qədər yazırıq, danışırıq, andır düzəlmir ki, düzəlmir, ta neyləyək. Bayağı verilişlərə görə beynimizi xarab edəkmi, ürəyimizə salıb xəstə düşəkmi, ya "Koroğlu" körpüsünə çıxıb MTRŞ sədri Nuşirəvan Məhərrəmlinin hadisə yerinə gəlməsini istəyəkmi?

Camaatda da az yoxdur, oturub maraqla o diringilərə baxırlar, hələ ictimai yerlərdə müzakirə-zad da açırlar, sonra da deyirlər, telekanalların zayı çıxıb, bayağı verilişlər verirlər.

Televizyonçular da görür ki, o səfeh verilişlərə görə onları nə qədər söysələr də, izləyiciləri azalmır, auditoriyaları genişlənir, reytinqləri qalxır. Belə olandan sonra hansı telekanal rəhbəri aktual problemlərin həlli yollarına dair tok-şou təşkil edib ağrımayan başına dəsmal bağlayar? Heç kim. Üstəlik, əllərində arqumentləri də var: "Xalq belə verilişləri sevir, sevə-sevə baxır".

Budur, Milli Məclisin üzvü Nizami Cəfərov çox yerində deyir: "Bəziləri ola bilər ki, narkotik vasitələrdən də ləzzət alır, ona meyli var. Amma bu o demək deyil ki, kiminsə meyli varsa, narkotiki təbliğ edən verilişlər efirə verilməlidir".

Gerçəkdən də, əgər meyxana deyişmələri, yaxud da xoruzdöyüşdürmə, itboğuşdurma yarışları camaata xoş gəlirsə, televiziyalar səyyar kamera və mikrofonlarını həmin yarışmaların keçirildiyi məkanda quraşdırıb canlı yayıma başlamalı deyillər. Orası da var ki, MTRŞ icazə versə, telekanalların bəziləri bu yola da əl atarlar.

Bir şeyi bilmək lazımdır ki, yuxarılarda yeleviziya işləndənlərə tapşırıq verilib ki, siyasətə burun soxmasınlar, eyzən manıslardan, idmançılardan danışsınlar. Onlar da elə edirlər.

Baxın, 60 gündən sonra seçkidir, guya ki, ölkənin gələcək taleyi həll olunacaq, amma görək, telekanallar bu mövzuda bir şey göstərirlərmi?

***P.S.** Durub keçirəm mətbəxə, görüm, yenə studiyaya hansı manıslar dəvət olunub və onlar hansı diringinin sədasına oynaşırlar.*

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015



# Dinlənilməyən telefonlar...

## Şifrəli mobil cihazlar Azərbaycana da gəlib, amma "kriptolu" telefonlar da etibarlı deyilmiş

**Dünyada geniş yayılmış dinləməyə qarşı proqramlanmış mobil telefonlar Azərbaycana da ayaq açıb. Artıq yerli iş adamları, məmurlar və siyasətçilər dinlənilməyə qarşı proqramlaşdırılmış telefonlar işlətməyə başlayıb. Məlum olduğu kimi, hazırda ümumi istifadədə olan telefonlar xüsusi qurğular vasitəsilə asan şəkildə dinlənilə bilir. Bir sıra ölkələrin xüsusi xidmət orqanları, polis təşkilatları şübhəli şəxslərin telefon danışıqlarını izləməyə alır və bütün telefon danışıqlarının mətnini çıxara bilirlər.**

Bu cür dinləmələr hətta böyük dövlətlərin rəhbərlərinə qarşı həyata keçirilib. Almaniya kansleri, Fransa prezidentləri, Türkiyə baş naziri və bu kimi digər yüksək vəzifəli dövlət adamlarının telefon danışıqları uzun illər dinlənilib. Ancaq "dərd verən, dərmanın da verir" prinsipinə uyğun olaraq müasir texnologiya nəhənglərin dinlənilməsinə qarşı proqramlaşdırılmış telefonlar istehsal edirlər.

Dinlənilməyə qarşı müqavimətli telefonların ən geniş yayılmış modeli "kriptolu" telefonlardır. Yeri gəlmişkən, Azərbaycan Silahlı Qüvvələrində "kriptolu" telefonların istifadəsinə bir neçə il əvvəl başlanılıb. CASSİDİAN markalı bu telefonlar dünyanın tanınmış müdafiə firmalarından olan EADS korporasiyasının istehsalıdır. Bu telefonlardan yalnız hər iki istifadəçidə olduqda onların öz arasında kriptolu danışması mümkündür.

**Kriptolu telefon**

"Kripto" qədim yunan sözündən gəliri gizli, şifrələnmiş sözlərinin əvəzinə istifadə olunan termindir. "Kriptolu" telefonlar dinləmələri və elektron nəzarəti əngəlləmək imkanına sahib olan, şifrəli rabitə qurmaq üçün istifadə olunur. Bu cür telefonlar şifrələnmək və ya şifrələri qırmaq imkanlarına sahib olan xüsusi mikroçiplərlə təchiz olunur. Bu cür telefonlar səs dalğalarını alarkən və ya ötürərkən fərqli şifrə ilə siqnallar göndərə bilir. Eyni zamanda yalnız "kriptolu" telefonlar göndərilən şifrələri qəbul edib oxuyur və doğru siqnallarla qarşı tərəfə dinlədir. Beləliklə, bu cür telefonlarla səs dalğaları şifrəli göndərilir və bir çox hallarda bu şifrələri tutub oxumaq mümkünsüz olur. Bu telefonlarla danışanları dinləyənlər yalnız anlaşılmaz səslər eşidə bilər. Eyni zamanda danışıqlar zamanı bütün parametrlər yalnız bir dəfə istifadə olunur və danışıqdan dərhal sonra yaddaşdan silinir. Hazırda əsasən ordu, kəşfiyyat xidmətləri və dinlənilmədən ehtiyat edən dövlət rəsmilərinin istifadə etdiyi bu cür telefonların analoqları Türkiyə bazarında 1500-3000 dollar arasında dəyişir.

Ancaq məlum olur ki, indi hətta kriptolu telefonların özləri də dinləmələrdən tam sığorta olunmayıb. Türkiyədə 2013-cü ilin dekabrında başlayan məlum həbslərdən sonra başlayan təhqiqatlar zamanı hətta dövlət rəsmilərinin "kriptolu" telefonlarla həyata keçirdiyi danışıqlar dinlənilib, "kriptolu" telefonların şifrələrini tutub oxuya bilən qurğular da artıq mövcuddur. Lakin o da məlum olub ki, bu cür imkanlara yalnız dünyanın bir neçə ölkəsinin xüsusi xidmət orqanları sahibdir.

Məsələn, bir il əvvəlki istintaq araşdırmaları zamanı məlum olmuşdu ki, Türkiyədə gizli şəkildə dinlənilən 8 minə yaxın telefon içərisində baş nazirin də telefon danışıqları olub. "Kriptolu" telefonlarla aparılan danışıqlar dinlənilib və daha sonra bu yazılar Türkiyədən çıxarılaraq xarici ölkələrdən birində *(bu ölkələr arasında İsrailin də adı hallanır - K.R.)* mövcud olan "super kompüter"də analiz edilərək lazımi səs yazıları seçilib.

Qeyd edək ki, "super kompüter" termini son illərdə tez-tez səslənməyə başlayıb. "Super kompüter" yüksək texnologiyalar və hesablamalar üzrə ixtisaslaşan şirkətlər tərəfindən istifadə olunur. Belə ki, "super kompüterlər" saniyədə yüz trilyonlarla əməliyyatı etmək imkanlarına malik böyük bir texnoloji aparatdır. Bu gün ən sürətli "super kompüter" saniyədə 136,8 trilyon davamlı əməliyyatı həyata keçirə bilmək imkanına sahibdir və Amerikanın "Lawrance Livermore" Milli Laboratoriyası adlı quruma məxsusdur. Bu super kompüterin imkanlarını müqayisə etmək üçün belə bir müqayisə aparmaq olar. Bu o deməkdir ki, super kompüterin bir saniyədə apardığı əməliyyatı 6,6 milyardlıq dünya əhalisinin hər biri əlindəki hesablama maşını ilə hər 5 saniyədə bir əməliyyat aparmaqla 60 saat dayanmadan çalışmaqla əvəz edə bilər.

Bu cür kompüterlər əsasən nüvə araşdırmaları sahəsində, birja analizləri, iqlim dəyişiklikləri hesabatlarının hazırlanması kimi sahələrdə istifadə olunur. Bu kimi cihazların qiyməti iş imkanlarından asılı olaraq 100 milyon dollara qədər arta bilir.

Məlum olub ki, "kriptolu" telefonlarla aparılan danışıqlar zamanı toplanan səs yazıları xarici ölkələrdə məhz bu cür super kompüterlər vasitəsilə təhlil olunub və müəyyən kodlaşdırmalar vasitəsilə lazımi səs yazılarının bir yerə toplanaraq dinləmə siyahısı hazırlanır. "Kriptolu" telefonlarda aparılan danışıqlar məhz "super kompüter" vasitəsilə oxunur və müvafiq proqram şifrələrdən danışığı qeydə alır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Azərbaycanda orqan köçürməsini əngəlləyən iki əsas səbəb - bahalıq və...



Adil Qeybulla

## Adil Qeybulla: "Bizdə heç kim beyin ölümü keçirmiş gənc övladını yarmağa, onun hansısa orqanını başqasına köçürməyə psixoloji cəhətdən hazır deyil..."

**Əvvəllər Azərbaycanda orqan transplantasiyası mümkünsüz idi. İndi isə bir neçə xəstəxanada bu əməliyyatlar həyata keçirilir. Ancaq bu əməliyyatlar xəstələrə həm baha başa gəlir, həm də insanlar lazımi orqanın tapılması üçün gözləməli olurlar ki, bu da təcili əməliyyata ehtiyacı olan xəstələrin həyatı bahasına başa gələ bilər.**

Buna görə də səhhətində problem olanlar Azərbaycanda cərrahiyyə əməliyyatı etdirməkdənsə qonşu ölkələrə, daha çox İrana, Türkiyəyə üz tuturlar. Çünki bir çox xarici ölkələrdə orqan köçürmə, eləcə də digər cərrahiyyə əməliyyatları Azərbaycandan ucuz həyata keçirilir. Ölkəmizdə, eləcə də bütün dünyada açıq ürək və böyrək köçürmə əməliyyatları geniş yayılıb. Azərbaycanda isə bu əməliyyatları etdirə bilmək üçün sözün əsl mənasında milyonçu olmalısan. Azərbaycanda orqan bankının olmaması da qiymətlərə təsir edir. Çünki ölkədə heç kim beyin ölümü keçirmiş yaxınının meyitinin yarılmasına və onun orqanlarının götürülməsinə razılıq vermir.

Azərbaycanda əhali hələ ki psixoloji cəhətdən buna öyrəşməyib. Ancaq digər dövlətlərdə vəziyyət fərqlidir. Məsələn, qonşu Türkiyədə hansısa vilayətdə yerləşən xəstəxanada beyin ölümü keçirmiş insan varsa, dərhal onun qohumlarından orqan götürmək üçün razılıq almağa çalışılır. Ölü sahibindən razılıq alınıb, yaradılmış şəbəkə vasitəsilə bütün xəstəxanalara məlumat verilir. Hansı xəstəxanada xəstəyə təcili olaraq orqan lazım olursa, Səhiyyə Nazirliyinin razılığı ilə dərhal helikopter vasitəsilə orqan xəstəxanaya çatdırılır və xəstəyə köçürülür.

Azərbaycanda bir insanın orqanının başqa birinə köçürülməsi faktı akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 1971-ci il martın 4-də nəinki Azərbaycanda, Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə xəstəyə böyrək köçürülüb. Sonradan bu iş dayandırılıb. Sovet hakimiyyətinin dağılması ərəfəsində yaranan durğunluq, tibbi avadanlıqların köhnəlməsi, işin risklilik dərəcəsi həkimlərin əlini uzun müddət bu işdən soyudub, onlar transplantasiya ilə məşğul olmayıblar. Azərbaycanda orqan transplantasiyası ilə bağlı hüquqi bazanın formalaşdırılması 1999-cu ildən başlayıb. Belə ki, həmin il "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub, 2000-ci ildə isə Nazirlər Kabinetinin qəbul etdiyi qərara görə, transplantasiyasına icazə verilən orqan və ya toxumaların siyahısı tutulub. Bunlar ürək, ağciyər *(ürək-ağciyər kompleksi)*, qaraciyər, böyrək, mədəaltı vəz və onların seqmentləri, mədəaltı vəz onikibarmaq bağırsaqla birlikdə, dalaq, sümük iliyi, gözün buynuz qişasıdır.

Hazırda dünya əhalisi arasında xroniki böyrək çatışmazlığı və bu səbəbdən dializ müalicəsinə cəlb olunan xəstələrin sayı artır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, müxtəlif ölkələrdə bir milyon əhalidən 800-1200 nəfərində xroniki böyrək çatışmazlığı müşahidə olunur və onlardan 250-650 nəfəri dializ müalicəsi alır.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla ölkədə orqan nəqlinin sistem şəklini almadığını dedi:** "Azərbaycanda orqanların nəqli, transplantasiyası məsələsi mütəxəssislərin olmasına baxmayaraq sistem şəklini almayıb. Bu, epizodik olaraq bir neçə xəstəxanada və regionların birində həyata keçirilir. Bunun sistem şəbəkə şəklini alması üçün çox ciddi bir struktur yaradılmalıdır. Burada donorların mənbəyi müəyyən edilməlidir ki, kim donor ola bilər. Donor olmaq, donor bankını yaratmaq asan məsələ deyil. Bundan başqa, lazım olan yerdə böyrəyin köçürülməsi hüququ əsaslarla tam təsdiq olunmalıdır. Böyrək ancaq qohumdan qohuma, yəni qan qohumluğu olan adamlara verilə bilər. Yad adamlara verilə bilməz. Çünki bu cür məsələlər kriminala yol açır. Keçmiş təcrübələr də bunu bir daha göstərdi. Türkiyədə böyrək köçürməsi əməliyyatı uğursuz deyil, Azərbaycandakından da ucuz həyata keçirilir. Bu, Türkiyədə tibbi xidmətin həddən artıq yüksək olması, bunun böyük bir şəbəkə şəklini alması ilə izah olunur. Təəssüf ki, Azərbaycanda bu məsələ hələ oturuşmayıb. Ona görə də orqan nəqlinin bir sistem şəkli almasından söhbət gedə bilməz. Düşünürəm ki, bunu etmək üçün ən böyük problemlərdən biri olan donor mənbəyi tapmalıdır. Donor mənbəyi də beyin ölümü keçirmiş gənc adamlardır. Azərbaycanda heç kim beyin ölümü keçirmiş gənc övladını yarmağa, onun hansısa orqanını götürməyə psixoloji cəhətdən hazır deyil. Yəni bunun üçün böyük təbliğat getməlidir. İnsanlar bu məsələyə yavaş-yavaş öyrəşməlidir. Düşünməlidirlər ki, həyatını itirən şəxs kiminsə həyatına başlanğıc verə bilər. Bu məsələlər psixoloji həllini tapmamış donor məsələsi də öz həllini tapmayacaq. Ona görə də hesab edirəm ki, bunun üçün bizə hələ zaman lazımdır".

❑ **Günel MANAFLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015

**2015-ci il Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyan arasında heç bir görüş olmadan başa çata bilər. Hər halda, onların arasında çoxdan planlaşdırılan Nyu-York təması olmayacaq. Çünki bugünlərdə bəlli olub ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri, o xüsusda Amerika tərəfi Azərbaycan və Ermənistan prezidentlərinin BMT Baş Məclisinin sessiyası çərçivəsində görüşünü təşkil edə bilməyiblər.**



# "Dağlıq Qarabağ - dondurulmuş münaqişə deyil..."

## Rusiyalı politoloq savaş xəbərdarlığı etdi və maraqlı təklif verdi: "Minsk üçlüyü ilə yanaşı, Rusiya-İran-Türkiyə regional üçlüyü yaradılsın"; Kremlin mərkəzində olduğu "üçlüklər" isə uğurlu ola bilmir, çünki...



Sergey Markov

O da məlum olub ki, cəbhə xəttində situasiyanın kəskinləşməsi fonunda həmsədrlər yalnız Nyu-Yorkda Azərbaycan və Ermənistan XİN başçılarının görüşünü hazırlamağa başlayıblar.

Bəzi mənbələrin məlumatına görə, görüşün alınmaması Azərbaycan prezidenti İlham Əliyevin ABŞ-a getməkdən imtina etməsi ilə bağlıdır. Qeyd edək ki, gələn ayın sonunda işinə başlayacaq BMT Baş Məclisinin sessiyasında İlham Əliyevin də çıxışı gözlənilirdi. Ölkə başçısının Amerikaya getməyəcəyi ilə bağlı xəbərlərə hələ ki rəsmi münasibət bildirilməyib.

***

Vasitəçilər prezidentlərin görüşünü aylar idi ki, hazırlayırdılar. Ancaq fakt budur ki, bu hazırlıqlar boşuna gedib. Əslində rəsmi Bakı status-kvonun saxlanmasına xidmət edən görüş xətrinə görüşlərin əleyhinədir və bunu bir neçə dəfə açıq şəkildə bəyan edib. Odur ki, növbəti səmərəsiz görüşdənsə, onun elə olmaması daha məqbul görünür. Çünki böyük ehtimalla, Nyu-York təması da əvvəlkilərdən fərqlənməyəcəkdi.

Belə qənaət üçün əsaslar yetərincədir. Ən birincisi odur ki, prezidentlərin 27 oktyabr 2014-cü il Paris görüşündən sonra Dağlıq Qarabağ məsələsi ətrafında faktiki, heç nə dəyişməyib, işğalçı Ermənistana vasitəçi dövlətlərin loyal münasibəti də yerində qalır. Belə olan təqdirdə və ötən illərin də təcrübəsi göstərir ki, prezidentlərin görüşü heç bir konstruktiv nəticəyə gətirə bilməz.

Problemin həllinə əngəl olan əsas faktorlardan biri isə məhz Rusiya və onun Qarabağ siyasətidir. Hərçənd Rusiya rəsmiləri daim başqa hava çalırlar, guya Moskva münaqişənin yoluna qoyulmasına çalışır, sadəcə, tərəflər razılığa gələ bilmirlər. Halbuki az qala uşağa da bəllidir ki, Rusiyanın birbaşa asılılığında olan Ermənistan məsələdə heç bir ciddi söz sahibi deyil, heç vaxt da olmayıb.

***

**"Rusiya Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair öz öhdəliklərinə məsuliyyətlə yanaşır". Musavat.com-un xarici KİV-ə istinadən verdiyi xəbərə görə, bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova konfliktlə bağlı ölkəsinin roluna toxunarkən bildirib.**

"Ümid edirik ki, Rusiyanın hansısa başqa ölkələrlə bizim günahımız üzündən baş verməyən fikir ayrılıqları Minsk Qrupunun isinə təsir göstərməyəcək. Biz tərəfdən heç bir əngəl, sual və ya problem ola bilməz. Biz bu formatın iştirakçısıyıq və öz öhdəliklərimizə çox məsuliyyətlə yanaşırıq, çünki başa düşürük ki, nə dərəcədə ciddi bir mövzu Minsk Qrupunun gündəliyindədir" - qeyd edib XİN rəsmisi.

Yəni yenə konstruktivlik imitasiyası. Məsələ də ondadır ki, Moskva həqiqətən vasitəçilik öhdəliklərinə ciddi və məsuliyyətlə yanaşsaydı, o sırada vasitəçilik missiyasının məsuliyyətini dərk eləsəydi, o zaman konfliktin həllinə səmimi şəkildə yardımçı olardı, nəinki onu İrəvanın əli ilə tormozlayardı.

Müşahidələr göstərir ki, Kreml bu siyasətini tezliklə dəyişmək fikrində deyil. Xarici işlər naziri Sergey Lavrovun Bakıya bu gün başlayacaq səfərindən də eyni səbəbə görə nəticə gözləməyə dəymir - baxmayaraq ki, səfər çərçivəsində Qarabağ məsələsinin müzakirə ediləcəyi bildirilib.

***

**Münaqişənin həllində hələ də işıq ucunun görünməməsi isə onun istənilən an alovlanması riskini aybaay artırır. Bunu Kremlə yaxın rusiyalı ekspertlər də gizlətmirlər.**

"Təmas xəttindəki son olaylar göstərir ki, Dağlıq Qarabağ münaqişəsi heç də dondurulmayıb və bu, yavaş-yavaş tüstülənən bir nöqtədir. Bu, onu göstərir ki, Minsk Qrupu öz işini kifayət qədər keyfiyyətli görə bilmir". **Rusiyalı politoloq, prezident Vladimir Putinin etibarlı adamı olmuş Sergey Markov belə deyir.**

**Onun sözlərinə görə, ara verməyən hərbi toqquşmalar hamsısa aralıq qərarın qəbulunu zəruri edir:** "Belə bir qərar əvvələ, nəhəng problemlər kompleksini qismən həll edərdi. Onların arasında əlbəttə ki, ən mühümü - azərbaycanlı qaçqınların Dağlıq Qarabağ ətrafındakı boş qalan 6 rayona qayıtmasıdır, hansını ki, Ermənistan gələcəkdə mübadilə eləmək məqsədilə öz nəzarətində saxlayır. Nəhayət, normal, diplomatik danışıqlar bərpa olunmalıdır ki, situasiyanın həllinə çıxış mümkün olsun".

"Mən düşünürəm ki, Ermənistan özünün daha yaxşı iqtisadi inkişafı, öz vətəndaşlarının və Dağlıq Qarabağ sakinlərinin rifahını təmin eləmək üçün Azərbaycan və Türkiyənin yaratdığı blokadanın götürülməsində maraqlıdır. Eyni zamanda Azərbaycan köçkünlərin Dağlıq Qarabağ ətrafındakı boş alan rayonlara geri dönməsində maraqlıdır" - qeyd edib ekspert.

Onun fikrincə, Minsk Qrupu xətti ilə danışıqlar alınmırsa, o zaman nizamlama prosesinə başqa yolla stimul vermək lazımdır: "Moskva belə danışıqların təşkili üçün ən təbii vasitəçi rolunda ola bilərdi. Perspektivdə Minsk üçlüyündən (Rusiya, ABŞ, Avropa Birliyi) savayı, situasiyanın sağlamlaşmasına xidmət edən Rusiya-İran-Türkiyədən ibarət regional üçlük də mümkün ola bilər", - deyə Markov fikrini tamamlayıb.

***

**Doğrudan da bəlkə İran və Türkiyənin prosesə aktiv qoşulması konfliktin həllini ölü nöqtədən çıxardı?**

"İranın sanksiyalardan sonra fəallaşması Qarabağ məsələsinə müsbət təsir edəcək". Bu barədə "Region" təhqiqat mərkəzinin "Dialoq - beynəlxalq mətbuat mərkəzi" çərçivəsində təşkil elədiyi internet mətbuat konfransında başqa **bir rusiyalı politoloq, Avrasiya inteqrasiyası və Mərkəzi Asiya məsələləri üzrə ekspert Arkadi Dubnov** Qarabağ zonasında müharibə ehtimalı ilə bağlı sualı cavablandırarkən bildirib.

"Güman edirəm ki, nüvə məsələsi ilə bağlı sanksiyaların götürülməsindən sonra regionda İranın rolu artdıqca Qarabağ məsələsində də situasiya yaxşı istiqamətə dəyişəcək" - qeyd edib analitik. Ekspertin ehtimalına görə, "Dağlıq Qarabağda müharibə yəqin ki, olmayacaq, ancaq müxtəlif dərəcəli intensivlikdə xoşagəlməz hadisələr, o cümlədən hərbi xarakterli olaylar mümkün və qaçılmazdır".

***

Bütün hallarda bir şey dəqiqdir ki, istər Minsk üçlüyü olsun, istərsə də "regional üçlük", nə qədər ki, üçlüklərin mərkəzində Rusiya durur Qarabağ problemi də acı bağırsaq kimi uzanacaq, çünki Moskva konfliktin həllinə çalışmır, münaqişənin çözümündə maraqlı olması barədə bəyanatları da səmimi deyil. Səbəb bu dərəcə sadə.

Görünən həm də odur ki, Rusiya nəinki Dağlıq Qarabağ probleminin həllini arzulamır, həm də obrazlı ifadə eləsək, "Cəhənnəmə getməyə" özünə yoldaş aparır. Onun biri və birincisi şübhəsiz ki, Ermənistandır. Bunu Ermənistanın siyasi və ekspert dairələrində də artıq aydın şəkildə dərk edirlər.

***

**Misal üçün, erməni politoloq İqor Muradyan Rusiyanı sərt tənqid atəşinə tutaraq erməni xalqının bütün bədbəxtliklərində şimal qonşumuzu günahlandırıb. O qeyd edib ki, Ermənistanın Avrasiya İqtisadi İttifaqına inteqrasiyası prosesinin iflasa uğramasından sonra Rusiya açıqdan-açığa şantaj siyasətinə keçib. Sitat:** "Rusiyanın bu planı boşa çıxdıqdan sonra Moskva şantaja keçdi. Bütün vasitələrdən istifadə olundu, qazın qiymətləri qalxdı, elektrik enerjisinin qiymətlərinin qalxacağı haqda xəbərlər yayıldı, Qarabağ cəbhəsində gərginlik artdı, rusiyapərəst müxalifət fəallaşdı. Bu müstəmləkəçilik siyasətidir. Bütün bunlar onu göstərir ki, Rusiya Ermənistanı müstəmləkəsi kimi saxlamaq, nəyin bahasına olursa-olsun bu regionda qalmaqda maraqlıdır".

**Daha sonra erməni cəmiyyətinin siyasi seçimini şərh edən erməni politoloq ölkə əhalisinin böyük əksəriyyətinin Qərbə inteqrasiya tərəfdarı olduğunu vurğulayıb:** "Ermənistanda kütlələrin səsini, onların tələbini işıqlandırmaq üçün normal, müstəqil KİV-lər belə yoxdur. Ölkənin bütün aparıcı media orqanları biznesi Rusiya ilə əlaqədar olan şəxslərin nəzarətindədir. Onlar ölkədə baş verənləri olduğu kimi işıqlandırmırlar. Hakimiyyətin və Rusiyanın əleyhinə olan fikirləri geniş tamaşaçı auditoriyasına çatdırmırlar, buna görə də kənardan belə təsəvvür yaranır ki, Ermənistanda hamı Rusiyanın tərəfdarıdır. Müxalifətin əlində beş-altı sayt və qəzet var və bununla da ölkədə baş verənləri tam işıqlandırmaq mümkün deyil".

"Rusiya ATƏT-in Minsk Qrupunun həmsədridir, amma Qarabağ münaqişəsinin həlli üçün heç bir iş görməyib və özünü də Ermənistanın təhlükəsizliyinin qarantı elan edib. İndiyədək Rusiya Ermənistanın təhlükəsizliyinin təmini üçün heç bir iş görməyib. Moskvanın bütün məqsədi konfliktdən istifadə edərək regiondakı hərbi varlığını davam etdirməkdir" - deyə Muradyan fikrini tamamlayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015

# Azərbaycanlılar niyə toyda çox oynayır?

## Azad İsazadə: "Rəqslər insanları rahatlaşdırır, stressdən çıxmağa, ətrafa pozitivlik verməyə səbəb olur"
## Niyazi Mehdi: "Musiqinin havasında rəqs edən kəs duyğularının zənginliyinə düşür"

**Elimizin toy kimi bir adəti var və bu adət ta qədimdən Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsidir. Təbii ki, toyun da ən yadda qalan hissəsi rəqslərlə bağlıdır. Lakin təəssüf ki, bəzən elə qanqaraldıcı məqamlar da məhz rəqslərlə bağlı olur. Belə ki, toylarda tez-tez mahnı sifarişi üstündə davalar, hətta qan düşdüyünün şahidi oluruq. Bu cür olaylara isə nədənsə daha çox rayon toylarında rast gəlinir.**

Etiraf edək ki, digər ölkələrə nəzərən Azərbaycan toylarında rəqs etməyə böyük maraq var. İçkili olmasına baxmayaraq inadla toyun əvvəlindən axırınadək meydandan, ortalıqdan çıxmaq istəməyən qonaqlara isə az qala hər bir toyda rast gəlirik. Bəs toylarda rəqslərə ifrat dərəcədə maraq nədən irəli gəlir?

**Psixoloq Azad İsazadə sualımıza cavab olaraq maraqlı rəy bildirdi:** "Adətən bizim toylarda ən azı 300-500-ə yaxın qonaq iştirak edir ki, onların da əksəriyyəti rəqs etmək, əylənmək istəyir. İnsan sayının çoxluğu xaos yaradır. Xüsusən də içkili insanlar öz davranışlarını idarə etməyi itirir, şüursuz şəkildə rəqs etməyə başlayırlar. Onlar başqasının sifariş etdiyi mahnı ilə razılaşmır, etiraz eşitdikdə isə dava salmağa çalışırlar. Fikrimcə, toylarda qonaqların sayı nə qədər az olsa, bir o qədər xoşagəlməz olaylar az olar. Toya bizə ən yaxın olan insanları dəvət etməliyik. Bəzən nəinki yaxınlarımızı, həmçinin iş yoldaşlarımızı, köhnə iş yoldaşlarımızı belə dəvət edirik. Ümumiyyətlə isə Azərbaycan xalqı ta qədimdən rəqslərə böyük maraq göstərib. Xüsusən də Qafqaz bölgəsinə aid olduğumuzdan bu, özünü daha qabarıq göstərir. Rəqslər insanları rahatlaşdırır, yüngülləşdirir, onu stressdən çıxartmağa, ətrafa pozitivlik verməyə səbəb olur. Buna görə də toy sahibləri toylarının daha maraqlı, şən keçməsi üçün daha çox gəncləri cəlb etməyə çalışır. Çünki gənclər yaşlılara nisbətən daha fəal rəqs edir, şənlənirlər".



### Bəs rəqs nə zaman və harada meydana gəlib?

Rəqs-bədii obrazın ritmik plastik hərəkətlərinin və insan bədəninin ifadəli vəziyyətlərinin dəyişməsi ilə yaranan incəsənət növüdür. Bəzən rəqsi ruhun sirli dili, bəzən də dünyanın sevimli metaforası adlandıranlar var. Azərbaycanda rəqs sənəti çox qədim zamanlardan başlayaraq insanların məişətində, adət-ənənəsində özünəməxsus mövqe tutmağa nail olub. O da məlumdur ki, ilk əvvəllər musiqi alətləri olmayıb, buna görə də rəqs tamaşaçıların çəpik çalmaları ilə əldə edilən ritmik zərbələrin mahiyyəti ilə yaranıb. Sonralar isə musiqi alətləri meydana çıxmağa başlayıb.

Azərbaycanda əsasən zurna, balaban, nağara və digər alətlərin ifası ilə rəqslər inkişaf etməyə başlayır. Digər xalqlarda olduğu kimi, milli folklorumuzda da qadın və kişi rəqsləri həm hərəkət tərzlərinə, həm də mənalarına görə bir-birindən kifayət qədər fərqlənir. Mütəxəssislər bildirirlər ki, xalqımıza məxsus qadın rəqsləri üç hissədən ibarət olub quş pərvazını, nazlı sonaların süzən hərəkətlərini xatırladır. Keçmişdə qadınlar uzun tumanda gəzdikləri üçün rəqs hərəkətlərinin texnikası çox da inkişaf edə bilmirdi. Buna görə bütün diqqət bədənin yuxarı hissəsinin - qolların, çiyinlərin, başın və üzün (qaş-gözün) hərəkətlərinin gözəlliyinə verilirdi. Bu baxımdan rəqslərdə qolların vəziyyətləri olduqca mükəmməl işlənib. Kişi rəqslərində isə ayaqların hərəkət texnikası böyük rol oynayır və o qədər inkişaf etdirilir ki, rəqqaslar asanlıqla barmaq üstdə dayana bilirlər. Lakin danılmaz faktdır ki, hazırda əksər qadınlar məxsusi incəliklə deyil, daha çox kişi kimi kobud şəkildə rəqs etməyə, xanıma xas olmayan ritmik ayaq hərəkətlərindən istifadə etməyə üstünlük verirlər. Bu isə rəqsin özünəməxsus xüsusiyyətlərinin pozulmasına gətirib çıxarır. Buna sənətşünaslar da irad bildirsələr də, tendensiya davam etməkdədir.

İnsan niyə rəqs edir? Bu haqda da yetərincə araşdırma və müzakirə aparılıb. Onların hər birində bu məqam xüsusi vurğulanır ki, rəqs edən şəxs başqa bir aləmə düşür, unudulmaz anlar yaşayır. Bu barədə professional rəqqaslar da qeyd edirlər. Lakin rəqs haqda anlayış o qədər də çox deyil. İnsanların əksəriyyəti bu barədə məlumatsızdır. Belə ki, tez-tez şahidi oluruq ki, toy və ya məclislərdə insanlar daim eyni hərəkətlər edirlər.

**Filosof Niyazi Mehdi rəqslərimizlə bağlı "Yeni Müsavat"a öz fikirlərini bölüşdü:** "İçimizdəki bilinməzliklərimizi özümüzə bilinər edən ən güclü vasitə musiqidir. Musiqi çox vaxt bizə qıraqdan yeni duyğular daşımır, öz düzümünə, ritminə uyğun olanları sonsuz duyğu imkanlarımızı canlandıraraq çəkir, salır dünyamıza. Musiqi "Əl-kimyası" birbaşa duyğularımızda əməliyyat aparır: səslərin düzümü, oynaşması duyğularımıza toxunan kimi burada isti, soyuq, sərin, sarı, ağ, yumşaq, cod səslərə çevrilir. Duyğularda yaranmış bu maddi, ancaq çəkisiz görklər (obrazlar) bədənə çevrilmək istəyəndə rəqs alınır. Rəqsdə də istənilən qədər "Əl-kimya" arxetiplərini görmək olar. Şərqin göbək rəqsləri od-alov əlamətlərini həm görünüşcə, həm də mənaca təkrar edir. Qafqazın ismətli qadın rəqsləri ehtirasların oduna qarşı süzə-süzə gəzən qamətlə mehin, fəzanın, havanın sərinliyini qoyur.

Kişi rəqslərimizdə "igidlik" anlamını təsirli bildirmək üçün odun, daşın, ağacın, havanın "Əl-kimyası" işə düşür. Mövlud Süleymanlının "Köç" romanında oynayanda qolların düz yerdən sındıran igidlər alov titrəşməsini bədənlərində təkrar edirlər. Açılmış qollar həm yırtıcı quş qanadlarını, həm də nəhəng ağacın budaqlarını andırır. Gərilmiş sinədə, donmuş pozalarda isə daşın parametrləri duyulmağa başlayır.

Marks deyirdi ki, insan ruhu materiyanın qarğışına tutulub, heç cürə ondan qurtula bilmir. Marks bu ifadəli sözləri düşüncə və dil bağlantısı üçün demişdi. Düşüncə sözün səslərində maddiləşməlidir. Başqa cür olmur. Ancaq Marksın söylədikləri daha geniş anlamda da doğrudur. İnsanın duyğuları bədəndə, jest və pozalarda davam edib özünə maddilik qazanır. "Əl-kimya" arxetipləri bu maddiləşməyə, nəsnələşməyə boya, "İstilik/Soyuqluq", "Bərklik/Yumşaqlıq" vurur. Bu keyfiyyətlər isə öz maqnetizmi ilə duyğuların yeni-yeni gözəgörünməz anlarını, keçidlərini özünə cəzb edib dünyamıza salır. Musiqinin havasında rəqs edən kəs duyğularının zənginliyinə düşür və oyunu ilə başqalarını də bu zənginliyə tutur".

### Dini toylarda rəqs qadağandırmı?

Son zamanlar ölkəmizdə dini toyların sayı çoxalıb. Bu cür toylarda əsasən çalğı çalınmır, rəqs edilmir. Buna səbəb kimi dindarlar bildirirlər ki, dində çalğı və rəqs qadağandır. Dini toy keçirilərkən Həzrət Əli (ə) ilə Həzrəti Fatimənin toy mərasimi nümunə götürülür. Deyilənlərə görə, həmin toy çox sadə keçib. Çox kasıb olan Həzrəti Əli döyüşlərdən əldə etdiyi zirehi satıb toy edib. Mərasimdə çalğı olmayıb, qadınlar və kişilərin məclisi ayrı olub.

Bəs görəsən, doğrudanmı dini toylarda rəqs qadağandır?

**Dinşünas Kənan Rövşənoğlu məsələyə bu cür rəy bildirdi:** "İslami hökmlərə görə, ümumi məclislərdə rəqs etmək olmaz. Xüsusən də kişinin və ya qadının öz həyat yoldaşından başqası qarşısında rəqs etməsinə icazə verilmir".

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəbəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarrın dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 192 (6220) 1 sentyabr 2015

# Suraxanı sakininin evi başına uçur

## Kanalizasiya xəttinin olmaması üzündən Bülbülədə Şamil Abdullayevin mənzili yararsız hala düşüb

**Suraxanı rayonu Bülbülə qəsəbəsi, Muradoğlu küçəsi ev 18-də yaşayan Şamil Abdullayev evinin uçma təhlükəsi qarşısında olmasından şikayətçidir. Bu barədə qəzetimizə məlumat verən Ş.Abdullayevin sözlərinə görə, Suraxanı Rayon İcra Hakimiyyətinin məsuliyyətsizliyi üzündən evi yaşamaq üçün yararsız hala düşüb. Şikayətçinin redaksiyamıza təqdim etdiyi görüntülərdən də mənzilin divarlarında olan çatlar açıq şəkildə görünür. Məsələ ilə bağlı Ş.Abdullayev bir sıra dövlət qurumlarına müraciət etsə də, onun şikayəti cavabsız qalıb. Son ümid yerinin "Yeni Müsavat" olduğunu söyləyən Şamil Abdullayev başına gələnləri aşağıdakı kimi danışdı:**

"2005-ci ildə Suraxanı rayonuna İlqar Abbasov adlı icra başçısı təyin olundu. Həmin zaman 127 adamın imzası ilə ərizə yazdım ki, bizim küçəyə kanalizasiya xətti çəkilsin. Kanalizasiya xətti olmadığı üçün qonşuların hamısı öz həyətində quyular qazıb, məişət sularını ora axıdırlar. Bu ərizəni icra hakimiyyətinə təqdim etdim. O vaxtdan bu günə qədər hər il 2 dəfə icra başçısının qəbulunda olduq. Ancaq kanalizasiya xətti çəkilmədi. 2014-cü ilə qədər bu prosesi Suraxanı Rayon İcra Hakimiyyəti uzatdı. Nəhayət, 2014-cü ildə bizə bildirdilər ki, bu il yüz faiz kanalizasiya xətti çəkiləcək. Lakin sonradan icra hakimiyyətindən bizə bildirdilər ki, Avropa Oyunları ilə əlaqədar olaraq, maddi vəsaitləri qəsəbəyə deyil, şəhərin mərkəzinə ayırırlar. Nəticə olaraq qəsəbəyə kanalizasiya xətti çəkilməsi üçün vəsait ayrılmadı".

**Ş. Abdullayev bildirib ki, onların yaşadığı mənzil qəsəbənin aşağısında olduğu üçün qonşuların axıtdıqları qrunt suları həyətindən, evlərinin altından çıxır:** "Bu səbəbdən də yaşadığımız mənzilin divarlarında çatlar əmələ gəlib. Mənzil yaşamaq üçün yararsız hala düşür. Problemlə əlaqədar Fövqəladə Hallar Nazirliyinə, Baş Prokurorluğa, Prezident Aparatına müraciətlər etmişəm. Bu qurumlardan da Suraxanı Rayon İcra Hakimiyyətinə bildirilib ki, problemə baxılsın və məsələ öz həllini tapsın. Lakin icra nümayəndəliyi problemin həlli ilə məşğul olmur".





**Ş. Abdullayevin redaksiyamıza təqdim etdiyi sənədlər arasında Suraxanı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Hacıyevin şikayətçiyə ünvanladığı məktubun şahidi olduq.** Məktubda bildirilib ki, "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, Suraxanı rayonuna da kanalizasiya xətti çəkiləcək.

Lakin şikayətçi tələb edir ki, onun yararsız hala düşmüş evi də təmir olunsun. Bununla bağlı isə icra hakimiyyətindən ona bildirilib ki, evin təmir edilməsi mümkün deyil. Çünki dövlət tərəfindən vəsait ayrılmayıb".

Şamil bəyin sözlərinə görə, Abdullayevlər artıq sözügedən mənzildə yaşaya bilmirlər. Problemin isə nə zaman həll edilməsi ilə bağlı ona konkret məlumat verilmir.

Məsələ ilə bağlı "Azərsu" ASC-nin Suraxanı Rayon Sukanal İdarəsi ilə əlaqə saxladıq. İdarədən özünü "dispeçer" kimi təqdim edən şəxs bildirdi ki, vətəndaşla gün ərzində əlaqə saxlanılıb, şikayətə bir daha baxılacaq. Eyni zamanda idarədən verilən məlumata görə, Suraxanı rayon Bülbülə qəsəbəsinə kanalizasiya xəttinin çəkilməsi ilə bağlı hələ ki konkret zaman bəlli deyil.

❑ **Əli RAİS**

# Məhkumun döyülməsini ekspertiza təsdiqləyib

## Rauf Sultanovun anası oğluna qarşı zorakılıqların araşdırılmasını istəyir



**Əlil məhkum Rauf Yusif oğlu Sultanovun Penitensiar Xidmətin Müalicə Müəssisəsində zorakılığa məruz qalması haqda yazmışdıq. Məhkumun anası Aygün Sultanova redaksiyamıza müraciət edərək oğlunun Penitensiar Xidmətin Müalicə Müəssisəsində zorakılığa məruz qaldığının təsdiqləndiyini bildirib: "Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin Hikmət adlı lor həkimi 3 saylı İstintaq Təcridxanasına gedib və Raufun qulağını müalicə edib.**

Qulaq pərdəsinin yırtılmasını təsdiqləyib. Yazıb ki, qulağının partladılması Rauf döyülən günə -5 avqusta təsadüf edir. Raufun özü ombudsman Elmira Süleymanovaya və Nizami prokuroru Aqşin Ziyadova da ərizə yazıb. Onu döyənlərin cəzalandırılmasını tələb edib".

Məhkumun anası deyib ki, oğlunu 1 aya yaxındır ki, Müalicə Müəssisəsinə köçürmürlər: "Tibb Baş İdarəsi və Penitensiar Xidmət Raufun Müalicə Müəssisəsinə köçürülməsinə süni maneələr yaradırlar. Oğlumu avqustun 5-də Müalicə Müəssisəsinin tərbiyə işləri üzrə rəis müavini Elnur Abbasov yanına çağırıb. Deyib ki, burada qalmağın üçün 500 manat verməlisən. Rauf da deyib ki, bizdə o qədər pul yoxdur. Elnur Abbasov rəis müavini, rejim rəisi Əhməd Bayramovu çağırıb, əmr verib ki, Raufun əlini qandalla. O da Raufun əlinə qandalı elə vurub sıxıb ki, qollarında qandalın izləri qalıb. Əllərinin dərisi gömgöy olub, əzilib. Bundan sonra da Raufun qulağından elə zərbə vurublar ki, qulağından qan, çirk axıb. Rauf 6-7 gün çörək də yeyə bilməyib, onu elektroşoka veriblər. Bundan sonra da hazırda saxlanıldığı Şüvəlandakı 3 saylı İstintaq Təcridxanasına köçürüblər. Raufu o günə qoymuşdular ki, çəliksiz yeriyə bilmirdi. Mən ədliyyə naziri Fikrət Məmmədova, Penitensiar Xidmətin rəisi Mədət Quliyevə, Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəisi Rəfael Mehdiyevə, ombudsman Elmira Süleymanovaya müraciət etmişəm. Tələb edirəm ki, oğlumu döyüb işgəncə verənlər cəzalandırılsın, Raufu Müalicə Müəssisəsinə köçürüb müalicə etsinlər".

Qeyd edək ki, R.Sultanov dələduzluqda ittiham edilərək həbs olunub. Hazırda Xəzər Rayon Məhkəməsində onun işi üzrə məhkəmə prosesi keçirilir. Proses zamanı məlum olub ki, əlilin həbsinə yol açan sənədlərdəki imzalar saxtalaşdırılıb. Məlum olub ki, R.Sultanovun əvəzindən ittiham aktında yazılanları qəbul etməsinin təsdiqi hesab olunan imza atılıb. Məhkəmə xətşünaslıq ekspertizasının eksperti də bu faktı təsdiq edib. Bundan sonra iş üzrə araşdırma aparan Nəsimi Rayon Polis İdarəsinin müstəntiqi Vüqar Məcidov tutduğu vəzifədən uzaqlaşdırılıb. Məsələni baş prokuror Zakir Qaralov nəzarətə götürüb. Hazırda imzanın saxtalaşdırılması işi üzrə Nəsimi Prokurorluğunda araşdırma aparılır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bərdədə məcburi köçkünlərin ev etirazı davam edir

## "Mənzillə təmin olunmasam, özümü yandıracam"

**Xəbər verdiyimiz kimi, avqustun 1-dən başlayaraq Bərdə rayonunda məskunlaşmış Ağdam, Füzuli, Laçın, Kəlbəcər rayonundan olan məcburi köçkünlər mənzil bölgüsü ilə bağlı şəhərin mərkəzi küçələrində etiraz aksiyası keçirib və məsələni ictimailəşdirməyə çalışmışdılar. Təqribən 30 ailə müxtəlif səbəblərdən mənzillə təmin olunmadığından, Bərdə rayonu Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi nümayəndələri və Bərdə RİH-in nümayəndələri ilə münaqişə yaranmış, aksiya iştirakçılarından 8 nəfər həbs olunmuşdu.**

Hadisənin üzərindən müəyyən müddət keçməsinə baxmayaraq musavat.com-un müxbiri məcburi köçkünlərin yaşadığı yataqxanada hazırda vəziyyətin nə yerdə olduğunu işıqlandırmağa çalışıb.

Aksiyanın ardından 20-yə yaxın ailə mənzillə təmin olunsa da, 105 saylı peşə məktəbinin yataqxanasında təqribən 10-a yaxın ailə hələ də qalıb və onlar müxtəlif səbəblərdən yeni mənzillə təmin olunmayıb. Yataqxanada qalan məcburi köçkün ailələrinin durumu acınacaqlıdır. Hazırda aparılan söküntü işləri sakinlərin həyatını alt-üst edib.





**Xocalıdan olan məcburi köçkün Süleyman Cavadov aidiyyəti qurumların onlara qarşı ədalətsiz davrandığını deyir:** "1993-cü ildən 105 saylı peşə məktəbində məskunlaşmışıq. Torpaqlarımızı, bağ-bağçamızı erməniyə qoyduq gəldik. İndi bizə 1 mənzili çox görürlər".

**Mənzil verilməməsinin səbəbinə gəlincə, Süleyman Cavadov bildirdi ki, onun Bakıda mənzili olmasını bəhanə edərək adını siyahıdan çıxarıblar:** "Əvvəl mənzil siyahısında adım var idi, lakin mənzillər veriləndə adım çıxmadı".

Sakinlər bildirdilər ki, yataqxananın həyətində gecə-gündüz texnikalar işləyir və evdə səs-küydən yatmaq olmur. Qonşu evlərdə aparılan söküntü işləri zamanı divarlar çatlayır, su, elektrik sistemi sıradan çıxır. Sakinlər onları bu yolla məcbur edib, həmin ərazidən çıxaracaqlarını bildirirlər.

**Adının çəkilməsini istəməyən məcburi köçkün əgər mənzillə təmin olunmasa, özünü yandıracağını deyir:** "Ailəm böyükdür, ata və oğul bir otaqda yaşayırıq. Artıq uşaqlar da böyüyüb. Bizimlə qaçqın düşən tanışların hamısına mənzil verildi. Biz niyə yaddan çıxdıq? Aidiyyəti qurumlar hara baxır? Neyləyək bizə ev versinlər? Bu gedişlə od vurub özümü yandıracağam".

Xatırladaq ki,son bir ayda 125-ə yaxın ailə bərdə-Yevlax yolunda yeni tikilən mənzillə təmin olunub. Hazırda yataqxanada 10 ailə qalıb.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 192 (6220) 1 sentyabr 2015

# Təmir zamanı xəzinə tapdılar

Amerikalı cütlük evdə təmir işləri görərkən mətbəxdən kassa tapıb. Kassadan çıxanlar ev sahiblərini şoka salıb. Arizona ştatında baş verən hadisə zamanı məlum olub ki, cütlük evlərinin təmirinə iki il öncə başlayıbmış. Lakin maddi çətinliklər üzündən bugünlərdə mətbəxin təmirinə başlayıblar. Təmir zamanı mətbəxin gizli yerindəki kassanı tapan ailə kiçik bir sərvətin sahibi olublar. 50 illik kassadan 50 min dollar pul, bir viski, bir kitab, krossvord və iki şəkil çıxıb. Ev sahibləri kassadan çıxan pulların çoxunun 100 dollarlıq əsginazlar olduğunu deyiblər. İçki isə 1960-cı ildən qalıb. Kassadan çıxan şəklin arxasında isə "Alan, məndəki kitabı oxumalısan" deyə yazılıbmış.





## Günorta yuxusu ömrü uzadır

İngiltərənin Asklepieion Voula General Xəstəxanasının alimləri günorta saatlarında qısa müddətli yatmağın qan təzyiqini normallaşdırdığını, beləliklə də infarkt və iflic riskini azaltdığını müəyyən ediblər. Təxminə 61 yaşında olan 386 xəstənin qan təzyiqini yoxlayan həkimlər günorta yatan şəxslərin təzyiqinin qalxma ehtimalının yatmayanlara nisbətdə daha az olduğunu üzə çıxarıblar. Təcrübədə iştirak edən şəxslərin ürək və nəbzlərinə nəzarət edən həkimlər gündüz yatmaq adəti olan şəxslərin orqanizmlərinin daha qüvvətli olduğunu deyiblər.



## 10 ildir lisenziyasız uçur

Almaniyalı bir pilotun Harle hava limanından Vangerooge bölgəsinə illərdir lisenziya olmadan 10 minlərə sərnişin daşıdığı məlum olub. Sözügedən bölgədə yaşayan 37 yaşlı alman pilotun 2007-ci ildən bəri saxta lisenziya əsasında uçduğu güman edilir. Haqqında araşdırma başladılan pilota "Hava nəqliyyatı haqda" Qanunu pozduğuna görə 2 il və saxta sənəd hazırladığına görə 5 il həbs cəzası veriləcəyi gözlənilir.

İki ildən bir imtahana girməli olan pilotun hər dəfə saxta sənədləri necə hazırladığı bilinmir. "FLN Frisia Luftverkehr GmbH Norddeich" hava yolu şirkətinin rəhbəri onun bu addımı niyə atdığını anlamadığını deyib. Daha əvvəl də haqqında sənədli film hazırlanan lisenziyasız pilotun özünü "super pilot" kimi təqdim etdiyi bildirilir. O, uçmağı çox sevdiyi üçün saxtakarlıq etdiyini də deyib. Hər il təxminən 60 min sərnişinin daşınıldığı ərazidə pilotun heç bir qəza törətmədən təyyarələri idarə etməsi onun dostları tərəfindən çox sevilməsinə səbəb olub.

# Mer fəvvarədə çimdi

Kiyev meri Vitali Kliçko sakinlər üçün nəzərdə tutulan meydanın açılışında iştirak edib. O, şəhərin mərkəzindəki fəvvarədə çimib. Beləki,"Poçt" meydanının açılışına qatılan Kliçko daha sonra uşaqlara qoşularaq, mərkəzdə yerləşən fəvvarədə çimib. Həmin meydan Kiyev sakinlərinin istirahəti üçün nəzərdə tutulub.

"Yaxın vaxtlarda burada kafelər və digər infrastruktur obyektləri də işləyəcək. Əminəm ki, bu ərazi piyadalar üçün ən sevimli məkanlardan biri olacaq. İstənilən adam burada uşaqları və dostları ilə rahat gəzə və əylənə bilər. Meydanda çox gözəl atmosfer və sərinləşdirici fontan var", - deyə Kliçko qeyd edib.

Şəhər meri həmçinin əlavə edib ki, kompleksin tam açılışı gələn ilin yazında olacaq. Kompleksdə yeni muzeyin açılışı da nəzərdə tutulur. Orada ziyarətçilər qazıntılar zamanı tapılmış 11-ci əsrə aid qədim abidələri də görə biləcəklər.





## Fədakar ata üçün yardım yağışı

Norveçli bir turist ötən həftə qucağında uşağı ilə Beyrut küçələrində dini kitablar satan bir atanın şəklini paylaşmışdı. Bu şəkil yayımlanandan sonra ataya yardım edilməsi üçün sosial mediada yardım kompaniyası başladılıb.

Norveçli turist Abdul adlı kişinin şəklini paylaşana qədər heç kəs onu tanımırdı. Lakin qızı çiyinində yatarkən atanın dini kitablar sataraq evini dolandırmağa çalışması hər kəsin ürəyinə toxunub. Dünyanın hər yerində yaşayan insanlar ataya yardım etmək istədiyini yazıb. İki günlük araşdırmadan sonra fədakar ata Abdul tapılıb və ona yardım edilməyə başlanılıb. Suriyadakı evindən qaçan ata və qızı üçün 5 min dollar toplanması nəzərdə tutulmuşdu. Lakin yardım kampaniyası rekord həddə çatıb. 23 saat ərzində 3 min nəferin yardımı ilə 80 min dollar toplanıb.




QOÇ - Hiss olunur ki, hansısa məsələyə görə tərəddüd içində qalmısınız. Əgər özünüz qərar çıxara bilmirsinizsə, etibar etdiyiniz insanlarla məsləhətləşin. Ayın bürcünüzdə olduğunu da unutmayın.

BUĞA - Ulduzlar bütün səlahiyyəti öz əlinizə verəcək. Odur ki, hər bir məsələdə obyektiv qərarlar qəbul etməlisiniz. Ətrafınızda olanlarla xoş davranın. Pulla bağlı diqqətli olun.

ƏKİZLƏR - İlk öncə ailə-sevgi münasibətlərini yaxşılaşdırın ki, gərginliyiniz azalsın. Günün ikinci yarısında sürprizlər mümkündür. Şəxsi büdcənizi artırmaq ehtimalınız da var. Yaxın səfərə çıxmağa dəyər.

XƏRÇƏNG - Kifayət qədər gərgin gün olduğundan tədbirli və ehtiyatlı olmağı unutmayın. Özünüzü istənilən təzyiq və təxribatdan qoruyun. Nəqliyyatda isə xüsusilə diqqətli olmalısınız.

ŞİR - Hansısa qanqaraldan hadisə gözlənilmir. Şübhə ilə yanaşdığınız adamları isə ittiham etməyə tələsməyin. Sizə hadisələri dərindən analiz etmək lazımdır. Nahar ərəfəsində təklif ala bilərsiniz.

QIZ - Bəri başdan nəzərinizə çatdıraq ki, bu təqvim sizin üçün daha çox maraqlı görüş və xoş təsadüflərlə yadda qalacaq. Çalışın ki, əsas vaxtınızı ailə-sevgi münasibətlərinə həsr edəsiniz.

TƏRƏZİ - Təzə ayın bu ilk günündə ulduzlar sizə daha çox istirahət vəd edir. Maraqlı sürprizlər, qonaqlıqlar yolunuzu gözləyir. Nahardan sonrakı saatlarda ovqatınızı yükləsdən insanlarla rastlaşacaqsınız.

ƏQRƏB - O qədər də uğurlu gün deyil. Daxili sıxıntılarınız, səhhətinizlə bağlı problemlər, eləcə də mövcud şəraitdən narazılığınız əhvalınızı aşağı sala bilər. Yalnız qazanmaq şansınız var.

OXATAN - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün uzaq səfərə çıxmağınız məsləhət deyil. Vaxtınızı ailənizlə və ya müştərək fəaliyyət göstərdiyiniz dostlarınızla birlikdə keçirin.

OĞLAQ - Məhəbbət və pul. Göy qübbəsi bu gün sizə məhz bu iki sahədə uğurlar bəxş edəcək. Deməli, büdcənizi ağırlaşdırıb sevdiyiniz adamla maraqlı bir təqvim yarada biləcəksiniz. Hər halda, uğurlar!

SUTÖKƏN - Düşünülməmiş risklərdən uzaq olsanız, ulduzlar sizi incitməyəcək, əksinə, günün sonuna qədər ovqatınızın xoş olması üçün cənfəşanlıq göstərəcək. Axşam təzə xəbərlər də gözlənilir.

BALIQLAR - Dünənki ovqatınız bu gün də davam edəcək. Ətrafınızda hər şey gözəl olacaq. Hətta maddi durumunuz imkan versə, səfər də etmək olar. Şəxsi işlərinizdə isə dönüş gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 451 milyonluq yaxta



Dünyanın 97-ci ən zəngin adamı sayılan rus oliqarx Andrey Melniçenko özünün dizayn etdiyi "Sailing Yatch A" adlı yaxtası ilə bu ilin sonunda səfərlərə başlayacaq. Melniçenko 9 milyard dollarlıq sərvətinin 451 milyon dollarını dünyanın ən böyük yaxtasına sahib olmaq üçün xərcləyib. 8 göyərtəsi olacaq yaxtanın uzunluğu 143 metr, ağırlığı 14 min 224 tondur. Gəmi firması olan "Philippe Strack" tərəfindən hazırlanacaq yaxtanın dabanında 1,8 tonluq tək parça şüşədən hazırlanmış nəzarət nöqtəsi olacaq. 54 nəfərin çalışması nəzərdə tutulan yaxtanın yelkənləri bir futbol meydançası böyüklüyündədir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300